DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 05 (346) / AVQUST 2020-Cİ İL



Bundan sonra da insanların sağlamlığının qorunması üçün bütün lazımi tədbirlər görüləcək. Mən bir daha qeyd etmək istəyirəm, - bunu dəfələrlə demişəm və Azərbaycan xalqı mövqeyimizi bilir, - bizim üçün birinci məsələ insanların həyatı, onların sağlamlığıdır.

O ki qaldı, iqtisadi və sosial məsələlərə, bu məsələlər də öz həllini tapır. Sadəcə olaraq, son aylar ərzində görülmüş işlərə baxmaq kifayət edər ki, hər kəs görsün nə qədər böyük işlər görülübdür. Biz təqribən 5 milyona yaxın insanı geniş sosial paketlə əhatə etdik. Dövlət sektorunda çalışan 900 min insanın böyük əksəriyyəti faktiki olaraq işləmir, ancaq dövlət tərəfindən əməkhaqqı alır. 760 min insana lazımi maliyyə dəstəyi göstərildi və onların iş yerləri qorundu. Əks təqdirdə, 760 min insan işsiz qala bilərdi. Çünki onların çalışdıqları sektorlar pandemiya nəticəsində ən böyük zərər görmüş sektorlardır. Təbii ki, sahibkarlar, işəgötürənlər indi gəlir əldə etmirlər və beləliklə, yüz minlərlə insan işsiz qala bilərdi. Yenə də dövlət operativ tədbirlər nəticəsində dərhal bu məsələyə müdaxilə etdi. Əlbəttə ki, bu məqsədlər üçün böyük maliyyə resursları xərclənibdir.

Altı yüz min işsiz insan, o cümlədən qeyri-formal məşğulluqda fəaliyyət göstərən və müvəqqəti olaraq öz işini itirən, aztəminatlı təbəqəyə aid olan insan dövlət tərəfindən qayğı ilə əhatə olunubdur. Onlara artıq bir neçə ay ərzində 190 manat müavinət verilir. Hesab edirəm ki, bu sosial dəstək bundan sonra da davam etdirilməlidir.

...Bu, bizim niyyətimizi, siyasətimizi göstərir. Onu göstərir ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bütün bunlar reallıqdır və bu reallığı biz özümüz yaradırıq, heç kimdən yardım almadan, maliyyə dəstəyi almaq üçün heç bir beynəlxalq maliyyə qurumuna müraciət etmədən. Baxmayaraq ki, bu gün dünya ölkələrinin mütləq əksəriyyəti maliyyə yardımı üçün müraciət edib. Biz öz gücümüzə arxalanırıq. Biz bu imkanları xalqımızın istedadı və düşünülmüş siyasət nəticəsində əldə etmişik.

**Prezident İlham Əliyev**

Koronavirusla mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda keçirilmiş müşavirədəki nitqindən

*6 avqust 2020-ci il*

### DİN XADİMLƏRİ İLƏ VİDEOKONFRANS FORMATINDA GÖRÜŞ KEÇİRİLİB



Səh. 4

### "BÜTÜN MÜSƏLMAN DÖVLƏTLƏRİ AŞURA GÜNÜNÜ KÜTLƏVİ QEYD ETMƏKDƏN ÇƏKİNİR"



Səh. 5

### PANDEMİYA DÖVRÜNDƏ KÜTLƏVİ DİNİ MƏRASİMLƏR: ADAPTASİYA ZƏRURƏTİ



Səh. 9

### DİM İSLAMŞÜNASLIQ İXTİSASINA QƏBUL OLMAQ İSTƏYƏN ABİTURİYENTLƏRƏ MÜRACİƏT EDİB




Səh. 14

# DÖVLƏT KOMİTƏSİ KOLLEGİYASININ 2020-Cİ İLİN BİRİNCİ YARISININ YEKUNLARI VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNAN ONLAYN İCLASI KEÇİRİLİB

Avqustun 7-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) Kollegiyasının 2020-ci ilin birinci yarısının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş onlayn iclası keçirilib.

Kollegiya iclasını açan DQİDK-nın sədri Mübariz Qurbanlı bildirib ki, Ümummilli Liderin layiqli davamçısı Prezident cənab İlham Əliyevin qurduğu uğurlu strategiya nəticəsində ölkədə ictimai-siyasi sabitlik mövcuddur, milli-mənəvi həmrəylik, etnik-dini tolerantlıq mühiti qorunub saxlanılır və mütərəqqi tarixi ənənələr daha da inkişaf etdirilir. Hazırda dünyanın üzləşdiyi koronavirus pandemiyasının qarşısının alınması, onun doğurduğu sosial-iqtisadi problemlərin aradan qaldırılması istiqamətində Azərbaycan dövləti tərəfindən çevik və məqsədyönlü siyasət aparılır, virusa qarşı mübarizənin ilkin mərhələsindən başlayaraq qabaqlayıcı addımlar atılır, yoluxucu xəstəliklə bağlı vəziyyət nəzarət altında saxlanılır. Ötən gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda keçirilən müşavirədə dövlət başçısının qeyd etdiyi kimi, həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onun sağlamlığı, maddi və mənəvi cəhətdən dəstəklənməsi dayanır. Pandemiyanın ölkəmizin iqtisadiyyatına, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı tədbirlər görüldüyü kimi, dövlətimiz dini sahəyə də diqqət və qayğısını əsirgəmir. Komitə sədri vurğulayıb ki, pandemiya dövründə dini qurumlara dövlət qayğısı və dəstəyi davam etdirilib, 2 iyun 2020-ci ildə Prezident cənab İlham Əliyev Azərbaycanda dini qurumlara maliyyə yardımının göstərilməsi haqqında Sərəncam imzalayıb. Həmçinin hər zaman olduğu kimi, pandemiya dövründə də dövlətimiz dini ibadət ocaqlarının, ziyarətgahların təmir və bərpa olunması istiqamətində fəaliyyətini dayandırmayıb. Prezident cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Pirsaat Baba ziyarətgahının yenidən qurulması, Pir Ömər Sultan ziyarətgahında bərpa-konservasiya işləri ilə tanış olmaq üçün Şamaxıda olublar. Bütün bunlar dövlətimizin dinimizə və mənəvi dəyərlərimizə olan həssas münasibətinin göstəricisidir.

Komitə sədri vurğulayıb ki, bu həssas dönəmdə Dövlət Komitəsinin, tabeliyində fəaliyyət göstərən Mənəvi Dəyərlərin Təbliği Fondu və İlahiyyat İnstitutunun rəhbərliyi və əməkdaşları Prezident cənab İlham Əliyevin "Biz birlikdə güclüyük!" çağırışına qoşulub, Koronavirusla Mübarizəyə Dəstək Fonduna könüllü olaraq ianə ediblər.

Komitə tərəfindən həyata keçirilən yerli və beynəlxalq tədbirlərə toxunan Mübariz Qurbanlı qeyd edib ki, cari ilin müvafiq dövrü ərzində Dövlət Komitəsi tərəfindən ayrıca və digər qurumlarla birgə ümumilikdə 50-yə yaxın tədbir həyata keçirilib. Mart ayının ikinci yarısından hesabat dövrünün sonunadək olan müddətdə sosial izolyasiya ilə bağlı tələblərdən irəli gələrək vətəndaşlarla canlı ünsiyyət formatında keçirilməsi planlaşdırılmış dini maarifləndirmə xarakterli bir sıra tədbirlər onlayn formatda davam etdirilib. Azərbaycan İlahiyyat İnstitutu və Brüssel Protestant İlahiyyatı və Dini Tədqiqatlar fakültəsinin birgə təşkilatçılığı ilə "Multikultural və dinlərarası dialoqda dini kimlik: Azərbaycan və Belçika modeli", Özbəkistan Respublikasının Nazirlər Kabineti yanında Dini Məsələlər üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə "Dini tolerantlıq dövlətin və cəmiyyətin inkişafında vacib amildir" mövzusunda beynəlxalq videokonfranslar baş tutub. Mübariz Qurbanlı diqqətə çatdırıb ki, mövcud şəraitin tələblərindən irəli gələrək pandemiyaya



qarşı mübarizəyə dəstək məqsədilə Dövlət Komitəsinin Mərkəzi Aparatının və bölgə şöbələrinin əməkdaşları sosial şəbəkələr vasitəsilə maarifləndirmə işləri aparıb, Azərbaycan dövlətinin pandemiya ilə bağlı həyata




keçirdiyi siyasəti təbliğ edilib. Dövlət Komitəsi tərəfindən müxtəlif dini konfessiyaların nümayəndələrinə, din xadimlərinə koronavirusa qarşı mübarizədə cəmiyyətdə həmrəylik nümayiş etdirmələri üçün internet resursları, sosial şəbəkələr, yaxud televiziyalara canlı yayım vasitəsilə qoşulmaqla maarifləndirmə işlərini aparmaları tövsiyə edilib. Bundan başqa, Dövlət Komitəsi səlahiyyətləri çərçivəsində ölkənin bütün bölgələrində karantin qaydalarının tələblərinə riayət olunması istiqamətində zəruri tədbirlər görüb və pozuntu halları aşkarlandığı anda dərhal qarşısı alınıb.

Çıxışı zamanı iyulun 12-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində təxribat törədən erməni hərbi birləşmələrinin atəşkəsi kobud şəkildə pozmasını diqqətə çatdıran Komitə sədri yüksək şərəf və ləyaqətlə Vətənimiz uğrunda şəhid olan qəhrəman oğullarımızla bütün Azərbaycanın fəxr etdiyini qeyd edib. Azərbaycan ordusunun hərbi qüdrəti, qətiyyəti və cəsarəti sayəsində Ermənistanın məkrli, çirkin təxribatının qarşısı qətiyyətlə alındığını bildirən M.Qurbanlı ölkəmizin növbəti dəfə həm hərbi, həm də diplomatik cəhətdən uğurunu nümayiş etdirdiyini deyib. Hərbi vətənpərvərlik, Vətən sevgisi, şəhidlik məqamı ilə bağlı maarifləndirmə işinin daha da genişləndirilməsinin zəruriliyini vurğulayan DQİDK sədri ilin əvvəlindən Silahlı Qüvvələrin şəxsi heyətinin maarifləndirilməsi istiqamətində Müdafiə Nazirliyi ilə birgə keçirilən tədbirlərin hazırda davam etdirildiyini diqqətə çatdırıb.

Daha sonra Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə hesabat məruzəsi ilə çıxış edib. Qeyd edib ki, hesabat dövründə məlumat bankının yenilənməsi və məlumatların dəqiqləşdirilməsi prosesi və statistikaların müəyyənləşdirilməsi həyata keçirilib. Son hesablamalara görə, ölkə ərazisində 2253 (212-si Naxçıvan Muxtar Respublikasındadır) məscid mövcuddur, eləcə də 14 kilsə, 7 sinaqoq fəaliyyət göstərir. Bundan əlavə, Zaqatala və Balakən rayonlarında 127 hücrə vardır ki, onların 115-də Ramazan ayında və dəfn mərasimlərində ayin icra olunur. Ölkə ərazisində 23 xristian dua evi, 1 bəhai, 1 krişna ibadətgahı mövcuddur.

Hazırda Azərbaycanda dövlət qeydiyyatına alınmış 942 dini qurum fəaliyyət göstərir. Onlardan 907-si İslam, 35-i qeyri-islam təmayüllü (24-ü xristian, 8-i yəhudi, 2-si bəhai və 1-i krişna şüuru) dini qurumlardır.

Bildirilib ki, ötən müddətdə koronavirus pandemiyası ilə əlaqədar Qafqaz Müsəlmanları İdarəsində (QMİ) ölkəmizdəki bütün dini konfessiyaların rəhbərlərinin iştirakı ilə toplantı keçirilib, dini icmalara və dindarlara karantinin tələblərinə əməl olunması, kütləvi şəkildə toplaşmamaları, dini ayinlərini evlərində yerinə yetirmələri ilə bağlı tövsiyələr və çağırışlar edilib. Daxil olan məlumatlara və monitorinqlərin nəticəsinə görə, karantin dövründə ölkədəki ibadətxanalarda kütləvi tədbirlərin keçirilməsi halları qeydə alınmayıb. Hazırda məscidlərdə azan verilir, bəzi müsəlman və xristian din xadimləri tərəfindən onlayn moizələr oxunur. Müsəlman icmaları Ramazan ayı, xristian icmaları Pasxa, yəhudi icmaları Pesaxla bağlı tədbirlərini sosial şəbəkələr vasitəsilə həyata keçiriblər. Müsəlman icmalarla yanaşı, qeyri-müsəlman icmalar da xüsusilə pandemiya dövründə qaydalara əməl etməklə, cəmiyyətimizin maariflənməsində fəal iştirak edir, koronavirusla mübarizədə həmrəylik nümayiş etdirirlər.

Hesabat dövründə dini duruma mənfi təsir göstərə biləcək zərərli dini təyinatlı ədəbiyyatın aşkarlanması istiqamətində həyata keçirilən tədbirlər barədə də məlumat verən şöbə müdiri vurğulayıb ki, 2020-ci ilin yanvar-iyun ayları ərzində Dövlət Komitəsinə daxil olmuş müraciətlər əsasında 1732 adda dini məzmunlu ədəbiyyata baxılaraq, dini dözümsüzlüyü, ayrı-seçkiliyi və radikallığı təbliğ edən 21 adda kitabın ölkəyə idxalının və yayılmasının qarşısı alınıb. Ölkədə nəşr olunmaq məqsədilə təqdim edilmiş 73 adda dini ədəbiyyata baxılaraq, onlardan 1-nin çapı məqsədəuyğun sayılmayıb. Həmçinin 176 adda (253 321 ədəd) dini təyinatlı ədəbiyyata yapışdırılması üçün nəzarət markaları verilib. Hüquq mühafizə orqanları tərəfindən Dövlət Komitəsinə göndərilmiş 115 adda dini təyinatlı ədəbiyyata və məmulat materiallardan 26-sının zərərli, yaxud müvafiq razılıq alınmadan idxal və istehsal edildiyi müəyyən edilib. Eyni zamanda ötən dövr ərzində 3 ixtisaslaşdırılmış satış məntəqəsinin fəaliyyətinə razılıq verilib.

Hesabat dövründə Dövlət Komitəsi Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə əməkdaşlıq etməklə ikinci dəfə "Könüllü fəaliyyət" layihəsinin, o cümlədən "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nına əsasən, Dövlət Komitəsi yanında İctimai Şuranın yenidən formalaşdırılması prosesinin icrasına başlayıb.

Sonra çıxış edən Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov hesabat dövründə görülən işlər barədə məlumat verərək qeyd edib ki, pandemiya ilə əlaqədar ölkəmizdə həyata keçirilən tədbirlər çərçivəsində ölkə üzrə tədris və təlim-tərbiyə prosesi mart ayından etibarən dayandırılıb. Mart ayının əvvəlinə kimi tədris ənənəvi üsulla, mart ayının sonlarından etibarən təlim-tərbiyə prosesi onlayn şəkildə davam etdirilib. Yaz semestrinin yay imtahan sessiyası yeni qaydalara uyğun olaraq onlayn formada, əsasən şifahi şəkildə keçirilib. Avqust ayının əvvəlindən 2019-2020-ci tədris ilinin ikinci

davamı səh. 3

# DÖVLƏT KOMİTƏSİ KOLLEGİYASININ 2020-Cİ İLİN BİRİNCİ YARISININ YEKUNLARI VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNAN ONLAYN İCLASI KEÇİRİLİB

əvvəli səh. 2

semestrində dərslərdə iştirak edə bilməyən tələbələr üçün "Microsoft Teams" platforması vasitəsilə onlayn dərslər başlayıb. A.Şirinov həmçinin İnstitutda ilk dəfə olaraq doktoranturaya qəbul imtahanının keçirildiyini, Dinşünaslıq və Dinin tarixi və fəlsəfəsi proqramları üzrə 2 nəfər doktorantın qəbul olunduğunu vurğulayıb. O bildirib ki, Azərbaycan İlahiyyat İnstitutu məzunlarının diplomları Türkiyə Respublikası Ali Təhsil Şurası (Yüksək Öyrətim Kurulu - YÖK) tərəfindən tanınmış və bu da öz növbəsində, tələbələrə Türkiyədə magistratura və doktorantura pillələri üzrə təhsil alma imkanını yaradır.

Həmçinin hesabat dövrü ərzində tədris prosesinin tələbinə əsasən dərslik və fənn proqramlarının hazırlığı sahəsində işlər davam etdirilib. Belə ki, 1 dərslik, 1 kitab (həmmüəllif) çap olunub, 1-i çapa göndərilib, 10-u nəşrə hazırdır, 7-si üzərində iş gedir. Həmçinin, Türkiyənin İstanbul şəhərində təqdimatı keçirilmiş, Xocalıda qətlə yetirilmiş 63 uşaqdan bəhs edən, 4 dildə nəşr olunan "Onlar heç vaxt böyüməyəcəklər" kitabının Türkiyə türkçəsinə transliterasiyası İnstitutun İslamşünaslıq kafedrasının müdiri tərəfindən həyata keçirilib.

Daha sonra Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun 2020-ci ilin yanvar-iyun ayları ərzində fəaliyyətinə dair hesabatla Fondun icraçı direktoru Mehman İsmayılov çıxış edib. O bildirib ki, hesabat dövrü ərzində 984 nəfər din xadiminə Fond tərəfindən aylıq maddi dəstək göstərilib. Maddi dəstək göstərilən din xadimlərindən 212 nəfəri Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərir. Hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2 iyun 2020-ci il tarixli Sərəncamı ilə Fonda ayrılmış 100 min manat vəsaitin 22 qeyri-islam dini icmanın hesabına köçürülməsi prosesi yekunlaşmaq üzrədir. Ölkəmizdə koronavirus (COVID-19) infeksiyasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejimində Fond tərəfindən aprel ayında 161 şəhid ailəsi və aztəminatlı ailələrə ərzaq yardımı təşkil edilib. Həmçinin iki Qarabağ qazisinə hər birinə 1000 manat olmaqla maddi yardım göstərilib. Bununla yanaşı, infeksiya ilə birbaşa mübarizə aparan 60-dan çox tibb işçisinə Fondun hədiyyələri təqdim edilib. Fondun





əməkdaşları və maddi dəstək göstərdiyi din xadimləri tərəfindən Koronavirusla Mübarizəyə Dəstək Fonduna ümumilikdə 40784 (qırx min yeddi yüz səksən dörd manat) vəsait köçürülüb. Ramazan bayramı münasibətilə may ayında ölkə üzrə ümumilikdə 166 şəhid ailəsinin üzvləri və müharibə əlillərinə bayram sovqatı (ərzaq) paylanılıb, Qurban bayramı münasibətilə Fond tərəfindən 16 şəhər və rayonda 32 böyük iribuynuzlu heyvan kəsilərək 2000-ə yaxın şəhid və aztəminatlı ailələrə verilib. M.İsmayılov həmçinin qeyd edib ki, Qurban bayramı ərəfəsində ölkəmizdə məzhəblərarası qardaşlığın möhkəmlənməsi, dini tolerantlığın qorunub saxlanılmasında fəal rol oynayan 10 din xadimi Fond tərəfindən mükafatlandırılıb. Hesabat dövründə Fondun dəstəyi ilə həyata keçirilən "Qarabağ üçün oxu-3" layihəsinin də təqdimatı keçirilib. İyul ayının əvvəlində gənclər arasında tarixi abidələrimizin təbliği məqsədilə "Tarixin şahidləri" müsabiqəsinə start verilib. İlin ikinci yarısında da pandemiya səbəbilə Fond maarifləndirmə sahəsində görəcəyi işləri daha çox audio, video, çap və internet vasitəsilə həyata keçirəcəkdir. Önümüzdəki aylarda tariximiz, ənənələrimiz, dəyərlərimiz, vətənpərvərlik və s. mövzularla əlaqəli video-çarxların hazırlanması və yayılması nəzərdə tutulub. Həmçinin bu mövzularla bağlı müxtəlif kitab və kitabçaların nəşri də əsas fəaliyyət istiqamətlərindən biri olacaq.

Sumqayıt bölgəsi üzrə şöbənin müdiri Yalçın Abdullayev, Quba bölgəsi üzrə şöbənin müdiri Eynulla Nurullayev, Lənkəran bölgəsi üzrə şöbənin müdiri Qağayı Məmmədov bölgələr üzrə mövcud dini durum haqqında məlumat verərək Dövlət Komitəsinin bölgə şöbələri tərəfindən dini icma üzvləri və din xadimlərinin iştirakı ilə onlayn formatda keçirilən tədbirlər, maarifləndirmə işləri barədə danışıblar. Bildirilib ki, tədbirlərdə Nazirlər Kabineti yanında Operativ Qərargahın təlimatına uyğun olaraq, Azərbaycanda bütün dini ibadətgahlarda dini ayinlərin icrasının dayandırılması və yas mərasimlərinə qoyulan məhdudiyyətlər barədə dini maarifləndirmə işlərinin aparılmasından bəhs edilib, QMİ-nin tapşırıq və tövsiyələrinə əməl edilməsinin vacibliyi vurğulanıb.

Sonda Dövlət Komitəsinin 2020-ci ilin ikinci yarısı üçün fəaliyyət planı, gələcək hədəflər, problem və perspektivlər geniş müzakirə edilib, kollegiyanın gündəliyində olan məsələlər və İş Planı ilə bağlı qərarlar qəbul olunub.

# KOMİTƏ SƏDRİ: "MÖVCUD VƏZİYYƏTDƏ AŞURANIN MƏSCİDLƏRDƏ QEYD OLUNMAMASINDA QEYRİ-ADİ SƏBƏB AXTARMAQ YOLVERİLMƏZDİR"

"Hazırda COVID-19 pandemiyasına qarşı mübarizə, insanların sağlamlığı və təhlükəsizliyi kimi məsələlər bütün sivil ölkələri düşündürən qlobal problemlərdəndir".

Bunu APA-ya açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib.

Komitə sədrinin sözlərinə görə, Azərbaycan bu gün dünyada koronavirusla qətiyyətli mübarizə aparan ölkələrin arasında birincilər sırasındadır: "Pandemiyanın qarşısının alınması, onun doğurduğu sosial-iqtisadi problemlərin aradan qaldırılması istiqamətində Azərbaycan dövləti tərəfindən çevik və məqsədyönlü siyasət aparılır, virusa qarşı mübarizənin ilkin mərhələsindən başlayaraq qabaqlayıcı addımlar atılır, yoluxucu xəstəliklə bağlı vəziyyət nəzarət altında saxlanılır. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın məsələyə ilk gündən həssas reaksiyaları, həyata keçirilən kompleks tədbirlər göstərdi ki, Azərbaycan dövləti insanların sağlamlığı üçün lazım olan bütün addımları atır. Məlum olduğu kimi, dünyanın hər yerində, eləcə də bizim ölkəmizdə bu ümumbəşəri bəlanın fəsadlarını azaltmaq məqsədilə məhdudlaşdırıcı tədbirlər həyata keçirilir".

M. Qurbanlı qeyd edib ki, qlobal pandemiya digər sahələr kimi, mənəviyyat sahəsinə də təsirsiz ötüşməyib: "Nazirlər Kabineti yanında Operativ Qərargahın təlimatına uyğun olaraq Azərbaycanda dini məbədlər, ziyarətgahlar, məscidlər, kilsələr və sinaqoqlarda dini ayinlərin keçirilməsi dayandırıldı. Ötən dövr ərzində epidemioloji vəziyyətlə bağlı Ramazan və Qurban bayramı günlərində də məscidlərdə bayram namazları qılınmadı. Hətta İslam dininin ən vacib əməllərindən olan Həcc ziyarəti məhdud çərçivədə baş tutdu, Roma Katolik Kilsəsinin başçısının geniş meydanlardakı ənənəvi toplantıları isə pandemiya ilə əlaqədar olaraq keçirilmədi".

Onun sözlərinə görə, Məhərrəmlik ayı və Aşura mərasimi də bu il koronavirusla bağlı yaranmış olduqca təhlükəli dövrə təsadüf edir: "Adətən ölkəmizdə Məhərrəmlik ayı müddətində, Aşura günündə məscidlərdə kütləvi dini ayinlər icra edilirdi, qanvermə aksiyaları keçirilirdi. Kütləviliyi ilə seçilən, sosial məsafənin saxlanması mümkün olmayan Aşura mərasiminin hazırkı dövrdə izdihamla keçirilməsi vətəndaşlarımızın sağlamlığı baxımından böyük təhlükədir. Mövcud vəziyyətdə Aşura mərasiminin məscidlərdə qeyd olunmamasında da qeyri-adi səbəb axtarmaq, bu məsələyə başqa don geyindirmək yolverilməz haldır. Bu, kütləvi tədbirlərlə əlaqədar bu vaxta qədər verilmiş qərarların məntiqi davamıdır.

Biz bir daha bütün vətəndaşlarımızı həm Operativ Qərargahın, həm də Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının müraciətində öz əksini tapan tövsiyə və qaydaları anlayışla qarşılamağa, eyni zamanda əməl etməyə çağırır, ibadətlərini öz evlərində yerinə yetirməyə, ehsan mərasimlərini keçirməməyə səsləyirik. Müraciətdə öz əksini tapan məqamlara qarşı din xadimlərimiz xüsusi diqqət yetirməli, bu həssas dönəmdə bu məsələdən təxribatlar üçün istifadəyə imkan verməməlidirlər. Bildirməliyəm ki, kimsə bu qaydalara əməl etməyib, insanları toplamaqla mərasim keçirməyə cəhd etsə qanunu pozmuş olacaq və həmin şəxs hüquqi məsuliyyət daşıyacaq".

Komitə sədri bildirib ki, hər il olduğu kimi, bu il də ənənəvi şəkildə Qafqaz Müsəlmanları İdarəsinin təşəbbüsü ilə qanvermə aksiyaları keçiriləcək: "Lakin əvvəlki illərdən fərqli olaraq bu humanist ənənəni davam etdirmək istəyən vətəndaşlar qan vermək üçün məscidlərə deyil, Mərkəzi Qan Bankının paytaxtda və bölgələrdəki filiallarına üz tutmalıdırlar. Eyni zamanda Məhərrəm ayında Kərbəla şəhidlərinin, imamların adına süfrələr açılır, ehsanlar verilirdi. Bu cür tədbirlərdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondu da iştirak edirdi. Amma bu il mövcud vəziyyətlə əlaqədar olaraq Dövlət Komitəsi, həmçinin Qafqaz Müsəlmanları İdarəsi bu cür süfrələrdə istifadə edilən ərzaqların aztəminatlı ailələrə göndərilməsini tövsiyə edir.

Bir daha vurğulayım ki, Azərbaycanda koronavirusla mübarizənin əsas istiqaməti əhalinin sağlamlığının qorunmasına yönəlib. Əminəm ki, bu qaydalara əməl etməklə bu ümumbəşəri bəladan birdəfəlik qurtulacaq, normal həyatımıza geri dönəcək, eləcə də əvvəlki illərdə olduğu kimi bütün dini mərasimlərimizi yüksək səviyyədə qeyd edəcəyik".

# DİN XADİMLƏRİ İLƏ VİDEOKONFRANS FORMATINDA GÖRÜŞ KEÇİRİLİB



Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə din xadimləri ilə videokonfrans formatında görüş keçirib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyinin və yerlərdəki nümayəndələrinin qatıldığı videogörüşdə QMİ-nin paytaxt və bölgələrdəki qazı və səlahiyyətli nümayəndələri iştirak ediblər. Şeyxülislam Allahşükür Paşazadə Vətən uğrunda şəhidlərimizin xatirəsini ehtiramla anıb və Məhərrəm ayının başlanması ilə bağlı məlumat verib. İlk növbədə, bildirib ki, müstəqillik dönəmində məscidlərimizin sayının 17-dən iki mindən çox artmasına, dini-mənəvi dəyərlərimizin inkişafı üçün dövlətimiz tərəfindən görülən böyük işlərə hər kəs şahiddir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Aşura günündə Təzəpir məscidinə gələrək dindarlar qarşısında unudulmaz çıxışını, Bibiheybət məscidinin təməlqoyma mərasimindəki tarixi əhəmiyyətli nitqini xatırladan QMİ sədri bu ali mənəviyyat yolunu davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin milli-dini dəyərlərimizin inkişafı üçün böyük işlər gördüyünü minnətdarlıqla vurğulayıb. Dini irsə qayğı ilə yanaşan dövlətimizin bu sahəyə diqqət və qayğısı şəraitində hazırda dünyada təlatümlər yaradan koronavirus səbəbindən məscid və ziyarətgahlarımızın qapalı olmasından təəssüfünü ifadə edən Şeyxülislam Allahşükür Paşazadə bu il dünyanın bütün nöqtələrində müxtəlif dinlərin müqəddəs bayram və önəmli ayinlərinin məcburi təcrid tədbirləri səbəbindən fərqli, kütləvi mərasimlər olmadan qeyd edildiyini xatırladıb. Xəstəliyin səngimədiyini və dünyanın müxtəlif ölkələrində yenidən artma meyilini vurğulayan QMİ sədri Azərbaycan dövlətinin misilsiz səyləri ilə ölkəmizdə vəziyyətin nəzarətdə saxlanılmasını, yoluxma sayının azalmasının müşahidə olunmasını müsbət hal kimi dəyərləndirib.

Şeyxülislam Allahşükür Paşazadə bildirib ki, dini mərkəz - Qafqaz Müsəlmanları İdarəsinin ölkəmizdə karantin elan olunan ilk günlərdən Nazirlər Kabineti yanında Operativ Qərargah ilə ətraflı məsləhətləşmələrdən sonra zəruri tövsiyələr nəzərə alınaraq, koronavirusa yoluxma hallarının qarşısının alınması məqsədilə ölkə ərazisindəki bütün məscid və ziyarətgahlarda ibadətlərin müvəqqəti dayandırılmasına dair qərar verilib. QMİ sədri vurğulayıb ki, pandemiya dövrünün məcburi təcrid tədbirləri virus təhlükəsinin qapalı və açıq məkanlarda insanların sıx toplaşdığı şəraitdə artması ilə əlaqədardır. Bu il İslamın vacib şərtlərindən biri olan müqəddəs Həcc ziyarətinin, habelə digər müqəddəs ayin və mərasimlərin müvəqqəti dayandırılması artıq dövrümüzün gerçəkliyidir. Aşura kimi, ənənəvi olaraq, böyük kütləviliyi ilə seçilən, sosial məsafəyə əməl olunmasının təmini qeyri-mümkün olan mərasim insanların virusa yoluxma sayının artma ehtimalı baxımından böyük təhlükə yarada bilər. Bu gerçəkliyi nəzərə alaraq, Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və səlahiyyətli nümayəndələri dindarlara müraciət edərək, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarını nəzərə alaraq, bu il Məhərrəmlik dönəmində məscid və ziyarətgahlarda təziyə mərasimlərinin keçirilməyəcəyini bəyan edir. QMİ sədri xüsusi vurğulayıb ki, hökumət dini mərasimlərin keçirilməsinə qarşı deyil, dindarların sağlamlığını qorumaq məqsədilə bu addımı atır.

İclasda müraciətin mətni oxunub.

Şeyxülislam Allahşükür Paşazadə xüsusi vurğulayıb ki, Uca Allahın yaratdığı ən müqəddəs dəyər olan insan həyatının qorunması məramı ilə bu məcburi addımın atılmasında əsas məqsəd vətəndaşlarımızın həyat və sağlamlığının qorunmasıdır. Bu məramın bəzən bilərəkdən təhrif olunması cəhdlərinin yolverilməz olduğunu bildirən QMİ sədri bu yanaşmada bəzi qüvvələrin dövlətlə dindarları qarşı-qarşıya qoyma məkrinin olduğunu istisna etməyib. O bildirib ki, dindarlar hər zaman dövlətin yanındadırlar və onun zəruri qərarlarını anlayış və hörmətlə qarşılayırlar. QMİ sədri dövlətin dinimizə qayğı və diqqətlə yanaşmasından razı olan din xadimlərimizin ölkəmizdəki məzhəblərarası harmoniya mühitinin qorunub saxlanılması, kənar qüvvələrin daxili sabitliyimizi hədəf alan, dini mühitimizə yönəlik məkrli addımlarının qarşısının alınması üçün əllərindən gələni əsirgəmədiklərini vurğulayıb. Şeyxülislam Allahşükür Paşazadə Qafqaz Müsəlmanları İdarəsi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin koordinasiyalı fəaliyyətinin bu baxımdan xüsusi önəm kəsb etdiyini vurğulayıb və belə bir əməkdaşlıq nümunəsinin mövcudluğuna görə Komitənin rəhbəri Mübariz Qurbanlıya minnətdarlığını bildirib. Dövlət qurumunun geniş heyətlə videogörüşə qatılması formatında keçirilməsini belə bir nümunəvi əməkdaşlığın göstəricisi kimi dəyərləndirən QMİ sədri dövlət-din münasibətlərinin səviyyəsindən razılığını ifadə edib.



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, pandemiyanın qarşısının alınması, onun doğurduğu sosial-iqtisadi problemlərin aradan qaldırılması istiqamətində Azərbaycan dövləti tərəfindən çevik və məqsədyönlü siyasət aparılır, virusa qarşı mübarizənin ilkin mərhələsindən başlayaraq qabaqlayıcı addımlar atılır, yoluxucu xəstəliklə bağlı vəziyyət nəzarət altında saxlanılır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onun sağlamlığı, maddi və mənəvi cəhətdən dəstəklənməsi dayanır.

Pandemiyanın ölkəmizin iqtisadiyyatına, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı tədbirlər görüldüyü kimi, dövlətimiz dini sahəyə də diqqət və qayğısını əsirgəmir. Komitə sədri vurğulayıb ki, pandemiya dövründə dini qurumlara dövlət qayğısı və dəstəyi davam etdirilib, 2020-ci il iyunun 2-də Prezident İlham Əliyev Azərbaycanda dini qurumlara maliyyə yardımının göstərilməsi haqqında Sərəncam imzalayıb. Həmçinin hər zaman olduğu kimi, pandemiya dövründə də dövlətimiz dini ibadət ocaqlarının, ziyarətgahların təmir və bərpa olunması istiqamətində fəaliyyətini dayandırmayıb. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva "Pirsaat Baba" ziyarətgahının yenidən qurulması və "Pir Ömər Sultan" ziyarətgahında bərpa-konservasiya işləri ilə tanış olmaq üçün Şamaxıda olublar.

Dünyanı təhdid edən COVID-19 bəlası ilə mübarizədə dövlət və din xadimlərinin bir araya gələrək qüvvələrini səfərbər etmələrində fayda olduğunu xatırladan Mübariz Qurbanlı pandemiya səbəbindən məscid və ziyarətgahların müvəqqəti bağlı olduğu dövrdə din xadimlərinin fəaliyyətindən razılığını bildirib. Komitə sədri vurğulayıb ki, din xadimlərinin insanlara mənəvi dəstəyi, müqəddəs dinimizin aşıladığı yüksək dəyərləri videomoizələrində, onlayn xütbələrində təlqin etmələri, mürəkkəb şəraitdə dini vacibatları yerinə yetirmələri cəmiyyət tərəfindən minnətdarlıqla qarşılanır.

Dövlət Komitəsinin sədri pandemiyanın tezliklə bitməsini arzulayıb və əmin olduğunu bildirib ki, insanlarımız dini məkanlarda yenidən bir araya gələcəklər. QMİ-də pandemiyanın başlanğıc dövründə keçirilmiş toplantıda bütün zəruri tövsiyələrin açıqlandığını bildirən M.Qurbanlı bunun müsbət nəticəsini verdiyini diqqətə çatdırıb və budəfəki iclasda QMİ-nin Qazılar Şurasının və səlahiyyətli nümayəndələrinin dindarlara Məhərrəm ayı ilə bağlı müraciətini də müsbət dəyərləndirib. Azərbaycan dövlətinin vətəndaşların sağlamlığının qorunması məqsədilə atdığı addımlarını yüksək qiymətləndirən M.Qurbanlı din xadimlərinin bu işə dəstəyini vacib sayıb, moizə və çıxışlarında bu məqamların vurğulanmasının böyük önəm kəsb etdiyini xüsusi vurğulayıb. Komitə sədri Azərbaycanın unikal dinlərarası və məzhəblərarası tolerantlıq məkanı olduğunu və dövlət-din münasibətlərinin yüksək səviyyəsini fəxrlə qeyd edib. O bildirib ki, Qafqaz Müsəlmanları İdarəsi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi mərkəzdə və yerlərdə eyni mərama xidmət edirlər. Bizim üçün müstəqil dövlətçilik mənafeləri, milli maraq, mənəvi dəyərlərimiz vacibdir və bu istiqamətdə hər zaman birgə fəaliyyət, faydalı əməkdaşlıq əzmindəyik. M.Qurbanlı Dövlət Komitəsinin televiziya kanallarında din xadimlərinin insanların mənəvi ehtiyac duyduğu çıxışlarına imkan və mütəmadi qaydada şərait yaradılması məsələsini diqqətdə saxladıqlarını bildirib.

QMİ sədri Şeyxülislam Allahşükür Paşazadənin moderatorluğu ilə davam edən videoiclasda Naxçıvan Muxtar Respublikası üzrə qazı Sahib Məmmədov, Sumqayıt şəhəri üzrə qazı Rauf Sərdarov, Gəncə bölgəsi üzrə səlahiyyətli nümayəndə Tahir Abbasov, Nəsimi rayonu üzrə səlahiyyətli nümayəndə Şahin Həsənli, cənub bölgəsi üzrə qazı Qəni Axundzadə, Quba bölgəsi üzrə qazı Naib Səttarov, Yeni Günəşli Fatimeyi-Zəhra məscidinin imamı İlqar Abdullayev, Xəzər rayonu üzrə qazı Soltan Əlizadə, İçərişəhər üzrə səlahiyyətli nümayəndə Surxay Məmmədov, Bərdə rayonu üzrə qazı Ramazan Hüseynov, Masallı Cümə məscidinin imamı Məftun Hüseynov, İmişli rayonu üzrə səlahiyyətli nümayəndə Adıgözəl Bəşirov çıxış ediblər.

Çıxışlarda din xadimləri öz fəaliyyətlərini QMİ-nin tövsiyə və tapşırıqlarına uyğun olaraq həyata keçirdiklərini və dövlətimizin pandemiyanın qarşısının alınmasına yönəlik addımlarını dəstəklədiklərini bildiriblər. Prosesdə rastlaşdıqları çətinlikləri sadalayan, bununla belə yerlərdə səlahiyyətləri çərçivəsində dini-mənəvi borclarını yüksək səviyyədə yerinə yetirdiklərini diqqətə çatdırıblar. Din xadimləri Uca Allahın köməyi ilə və dövlətimizin gördüyü tədbirlər sayəsində tezliklə virus təhlükəsinin sovuşacağına ümidvar olduqlarını bildiriblər. Öz təkliflərini səsləndirən din xadimləri Məhərrəm ayının həssas məqamlarına xüsusi önəm verilməsinin, milli və mənəvi dəyərlərin üz-üzə qoyulmasına yol aça biləcək məsələlərin diqqətdə saxlanılmasına diqqət çəkiblər. Xüsusi vurğulayıblar ki, son illər məhərrəmlik dönəmində Qafqaz Müsəlmanları İdarəsinin təşəbbüsü ilə gerçəkləşən və xalqımız tərəfindən təqdir edilən tibbi ehtiyaclar üçün Kərbəla şəhidlərinin xatirəsinə qan verilməsi ən münasib əzadarlıq nümunəsidir. Bildirilib ki, bu il də humanist ənənənin davam etdirilməsi, ölkəmizin Mərkəzi Qan bankının paytaxtda və bölgələrdəki filiallarında ehsan niyyəti ilə qan verilməsi təlqin olunacaqdır.

Videoiclasın sonunda şəhidlərin ruhları üçün Qurandan ayələr oxunub, QMİ sədrinin birinci müavini Müfti Salman Musayev dualar edib.

# QMİ-NİN QAZILAR ŞURASI MƏHƏRRƏM AYI İLƏ BAĞLI MÜRACİƏT YAYIB




Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurası qarşıdan gələn Məhərrəm ayı ilə bağlı müraciət yayıb.

Müraciətdə deyilir:

"Möhtərəm mömin qardaş və bacılarımız.

Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və səlahiyyətli nümayəndələri nəzərinizə çatdırır ki, Hicri-qəməri təqvimi ilə 1441-ci il başa çatır, yeni 1442-ci ilin başlanğıcı – Məhərrəm ayının 1-i Miladi təqvimlə 2020-ci il avqust ayının 21-nə təsadüf edir.

Məhərrəm ayı Hicri-qəməri ilinin ayları arasında müqəddəs aylardan biridir. Bu ay Həzrət Peyğəmbərin (s) buyurduğu kimi, müharibələrin qadağan olunduğu aylardan biri olmasına baxmayaraq, Aşura günü İmam Hüseyn əleyhissəlam tərəfdarlarının haqq uğrunda şəhadətə yetişdiyi gün kimi Əhli-Beyt (ə) tarixinə kədərli, lakin, eyni zamanda, inanclı insanlara qürur bəxş edən bir məqam kimi daxil olub. Kərbəla faciəsinin nəsillərin yaddaşında yaşaması, İmam Hüseyn əleyhissəlamın həyat və mübarizəsinin yad edilməsi olduqca böyük mənəvi-əxlaqi əhəmiyyət kəsb edir. İmam Hüseyn əleyhissəlamın əzadarlığı iman sevgisinin, əqidəyə sadiqliyin, Vətən uğrunda şəhadətə hazırlıq ruhunun təcəssümüdür.

Möhtərəm qardaş və bacılarımız, Məhərrəm ayının 10-u – Aşura günü 2020-ci il avqust ayının 30-na təsadüf edir. Bu münasibətlə bütün dindarlarımıza dərin hüznlə başsağlığı verir, Allah-Təaladan səbr, məğfirət diləyirik.

Bu il Aşura dünyada davam edən koronavirus pandemiyası dövrünə təsadüf edir. Aylardır ki, koronavirus pandemiyası bütün dünyanı cənginə alıb, yüz minlərlə insan bu qorxunc bəla üzündən həyatını itirib, milyonlarla insan xəstəxanalarda ölümlə həyat arasında mübarizə aparmaqdadır. İnsan sağlamlığına ciddi təhlükə, ölümcül təhdid olan, hələ də səngiməyən bu bəlanın aradan qaldırılması yönündə dünya birliyi böyük səylə çalışır. Şükürlər olsun ki, dövlətimiz tərəfindən xəstəliyin aradan qaldırılması üçün bütün lazımi tədbirlər görülür, insanlarımız diqqət və qayğı ilə əhatə olunublar. Ölkə rəhbərliyinin qayğı və diqqətini öz üzərində hiss edən insanlarımız hökumətin verdiyi zəruri qərarlara hörmət, məsuliyyət və anlayışla yanaşırlar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi və diqqəti sayəsində vətəndaşlarımızın sağlamlığı üçün önləyici tədbirlər görülür, həm Bakıda, həm də ayrı-ayrı bölgələrimizdə modul tipli xəstəxanalar istifadəyə verilir. Xəstəliklə mübarizədə yerli həkimlər fədakarlıq nümayiş etdirir, əcnəbi həkimlər də prosesə cəlb olunur. Nazirlər Kabineti yanında Operativ Qərargah xəstəliyin miqyasının genişlənməməsi, əhalinin sağlamlığının qorunması məqsədi ilə lazımi tədbirlər həyata keçirir, müvafiq tövsiyələrini verir.

Dini mərkəz - Qafqaz Müsəlmanları İdarəsi ölkəmizdə karantin rejimi tətbiq olunan ilk günlərdən Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah ilə ətraflı məsləhətləşmələrdən sonra zəruri tövsiyələri nəzərə alaraq, koronavirusa yoluxma hallarının qarşısının alınması məqsədilə ölkə ərazisindəki bütün məscid və ziyarətgahlarda ibadətlərin müvəqqəti dayandırılmasına dair qərar verib. Uca Allahın yaratdığı ən müqəddəs dəyər olan insan həyatının qorunması məqsədilə bu məcburi addımın atılmasında əsas məqsəd vətəndaşlarımızın həyat və sağlamlığının qorunmasıdır.

Pandemiya dövrünün məcburi təcrid tədbirləri virus təhlükəsinin qapalı və açıq məkanlarda insanların sıx toplaşdığı şəraitdə artması ilə əlaqədardır. Dünyanın bütün nöqtələrində bu və ya digər şəkildə təcridolunma həyata keçirildiyi, İslamın vacib şərtlərindən biri olan müqəddəs Həcc ziyarətinin, habelə digər dinlərin müqəddəs ayinlərinin müvəqqəti dayandırılması artıq dövrümüzün gerçəkliyidir. Aşura kimi, ənənəvi olaraq, böyük kütləviliyi ilə seçilən, sosial məsafəyə əməl edilməsinin təmini qeyri-mümkün olan mərasim insanların virusa yoluxma sayının artma ehtimalı baxımından böyük təhlükə yarada bilər. Bu gerçəkliyi nəzərə alaraq, Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və səlahiyyətli nümayəndələri bəyan edir ki, Operativ Qərargahın qərarına əsasən bu il Məhərrəmlik dönəmində məscid və ziyarətgahlarda təziyə mərasimləri keçirilməyəcəkdir. QMİ-nin yerlərdəki qazı, səlahiyyətli nümayəndə və imamları bu tövsiyələri dindarlara çatdırmalıdırlar.

İnsan sağlamlığının qorunması Uca Allahın istəyidir və bununla bağlı hər birimizin üzərinə həm özümüz, həm də yaxınlarımızın sağlamlığı ilə bağlı böyük məsuliyyət və dövlətimizin bu istiqamətdə tədbirlərinin səmərəliliyinin təmini baxımından ictimai vəzifə düşür. QMİ-nin Qazılar Şurası və səlahiyyətli nümayəndələri bildirir ki, Uca Allahın buyurduqlarına, müqəddəs hədislərə istinadən özünün, yaxınlarının və ətrafındakıların həyat və sağlamlığını təhlükəyə atmamaq hər bir dindarın borcudur. İmanlı insan təkcə öz canının deyil, başqalarının da canının qorunmasından məsul, mükəlləfdir. Dinimiz müxtəlif xəstəliklərə qarşı önləyici tədbirlərin alınmasına, xüsusilə yoluxucu xəstəliklərə qarşı son dərəcə diqqətli olmağa çağırır. Hər bir insan belə bir təhlükədən özünü gözləməlidir. Bir yerdə yoluxucu xəstəlik olduğunu bilə-bilə oraya getmək insanın özünü təhlükəyə atması deməkdir. Deməli, belə bir xəstəlik ehtimalı olan yerlərdən uzaq durmaq lazımdır. Yoluxucu xəstəlik olan vəba haqqında Həzrəti Peyğəmbərimiz belə buyurub: "Vəbanın ortaya çıxdığını eşitdiyiniz bir yerə getməyin. Əgər olduğunuz yerdə vəba görülərsə, siz də oradan kənara çıxmayın". Yoluxucu xəstəliklərin geniş yayıldığı şəraitdə yaşayan insanlar bu mövzuda ayıq olmalı, heç bir vəchlə öz həyatını təhlükəyə atmamalıdır. Çünki, həm gündəlik həyatımızdan, həm də tarixdən məlum olduğu kimi yoluxucu xəstəliklər məhz insanların etinasızlığı ucbatından sürətlə yayılıb və bəşəriyyətin bəlasına çevrilib. Heç bir müsəlmanın özünü təhlükəyə atmağa ixtiyarı yoxdur. Çünki bizi yaradan Allah bu canı bizə əmanət olaraq verib və əmanəti sahibinə qaytarana qədər onu qorumaq hər birimizin borcudur. Elə isə bu əmanəti qoruyaq və özümüzü təhlükəyə məruz qoymayaq. "Qurani-Kərim"də buyurulduğu kimi: "Öz əlinizlə özünüzü təhlükəyə atmayın" (Bəqərə, 195).

Dövlətimiz tərəfindən görülən zəruri tədbirlərə böyük önəm və dəyər verən biz, din xadimləri hər zaman olduğu kimi, dövlətimizin yanındayıq və onun xalqımızın rifah və tərəqqisi naminə səylərini dəstəkləyir, fəaliyyətinə rəvac diləyirik. Öz növbəmizdə, pandemiyaya dair hökumətimiz tərəfindən müəyyən edilən bütün zəruri qaydalara əməl etməli, verilmiş tövsiyələri hər kəsə təlqin etməli, xəstəlik təhlükəsinin qarşısının alınması, tezliklə sovuşması üçün əlimizdən gələni əsirgəməməliyik. Ümidvarıq və dualar edirik ki, Allahın izni ilə bu çətin günlər keçəcək, xalqımız yenidən məscidlərdə ibadət etmək, dini ayin və mərasimləri kütləvi şəkildə yerinə yetirmək lütfünə qovuşacaqdır, İnşallah.

Vətənimizin və millətimizin rifahı üçün Allaha dualar etmək hər zaman hər birimizin mənəvi borcudur. Məhərrəmlik dönəmində də bütün ibadət və dualarımızda Kərbəla şəhidləri ilə yanaşı, Qarabağ, Xocalı şəhidlərinin, suverenliyimiz, ərazi bütövlüyümüz uğrunda canlarından keçən bütün Vətən övladlarının əziz xatirəsini yad edir, Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımızın işğaldan tezliklə azad olunmasını diləyirik. Vətəni sevmək imandandır. Allah doğma torpağımız uğrunda canlarını fəda etmiş, Peyğəmbər Məhəmməd Salavatullahın mübarək hədisində buyurulduğu kimi, Allah yanında imanın, mənəviyyatın ən yüksək məqamına yüksəlmiş bütün Vətən övladlarına rəhmət eləsin. Allah tezliklə Qarabağımızın işğaldan azad olmasını, Vətən torpağının bütövlüyünün bərpasını bizlərə nəsib etsin, İnşallah.

Məhərrəmlik dövründə təziyə ehsanı olaraq imkansız ailələrə, maddi sıxıntı çəkən insanlara ərzaq və ya hər hansı sovqatın çatdırılması Allaha xoş gedən bəyənilən əməldir. Həmçinin, son illər Məhərrəmlik dönəmində Qafqaz Müsəlmanları İdarəsinin təşəbbüsü ilə gerçəkləşən və xalqımız tərəfindən təqdir edilən tibbi ehtiyaclar üçün Kərbəla şəhidlərinin xatirəsinə qan verilməsi ən münasib əzadarlıq nümunəsidir. Ümidvarıq ki, İnşallah, dindarlarımız bu il də humanist ənənəni davam etdirərək, pandemiya səbəbindən məscidlərdə deyil, ölkəmizin qan bankının paytaxtda və bölgələrdəki filiallarında ehsan niyyəti ilə qan verəcəklər. Həmin məkanların ünvanları Qafqaz Müsəlmanları İdarəsinin rəsmi veb səhifəsində (www.qafqazislam.com) yerləşdirilib.

Uca Allah xalqımızı, dövlətimizi hifz etsin və möhtərəm dövlət rəhbərimizin Azərbaycan naminə fəaliyyətinə rəvac versin. Amin.

Vəs-səlamu əleykum və rəhmətullahi və bərəkatuhu".

## "BÜTÜN MÜSƏLMAN DÖVLƏTLƏRİ AŞURA GÜNÜNÜ KÜTLƏVİ QEYD ETMƏKDƏN ÇƏKİNİR"



"Bəşəriyyət tarix boyunca koronavirus kimi dəhşətli bəlaya ilk dəfədir düçar olub. Azərbaycanda kütləvi yoluxmanın qarşısını almaq üçün mümkün qədər kütləvi tədbirlərdən uzaq olmalıyıq".

Bunu APA-ya açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı bildirib. Onun sözlərinə görə, karantinlə bağlı yumşalma olan kimi yoluxma sayı artır: "Bu mənada Məhərrəmlik və Aşura kimi ümumdünya müsəlman mərasimləri də təxirə salınmalıdır. Bunu hər bir müsəlman öz evində, ailəsində yad etməlidir. Dünyanın bütün müsəlman dövlətləri Aşura gününü kütləvi qeyd etməkdən çəkinir. Qonşu İranda da Aşura gününün keçirilməsi qadağan edilib. Çünki 20-30 min insanın bir yerə toplaşması virusun həmin ölkədə daha da sürətlə yayılıb yoluxmanın daha da artmasına səbəb ola bilər. Bu, çox aydın həqiqətdir, insanlar bunu dərk etməli və qanunlara tabe olmalıdırlar. Prezident İlham Əliyev də bildirib ki, başlıca məqsəd əhalinin sağlamlığını qorumaqdır. Bu da məsafə saxlamaq, şəxsi gigiyena qaydalarına ciddi əməl etmək və kütləvi tədbirlərdən uzaq olmaqla mümkündür.

Dəfələrlə deyilməsinə baxmayaraq, insanlar yenə də məsafə saxlamırlar, məsuliyyətsizlik edirlər. Hətta pandemiyaya görə bu il Həcc ziyarəti dayandırılıb. Ölkədəki epidemioloji vəziyyət nəzərə alınmaqla, bu il Azərbaycanda Ramazan və Qurban bayramları ilə əlaqədar məscidlərdə ənənəvi bayram namazları qılınmayıb. Mövcud vəziyyətdə Aşura mərasiminin məscidlərdə qeyd olunmamasında da qeyri-adi səbəb yoxdur. Bu, kütləvi tədbirlərlə əlaqədar bu vaxta qədər verilmiş qərarların məntiqi davamıdır. Bütün möminlər bunu anlayışla və həmrəyliklə qarşılayırlar. Bəzi ölkələr məscidləri açsalar da yoluxma sayının sürətlə artmasını görüb yenidən bağladılar. Bu o demək deyil ki, biz dinimizi sevmirik, dindən ayrı qalırıq. Sadəcə olaraq, insanları qorumaq lazımdır. Hamı deyilən qaydalara mütləq şəkildə əməl etməlidir".

# ERMƏNİSTANIN NÖVBƏTİ HƏYASIZLIĞI



Bu yaxınlarda ictimaiyyət üçün açıqlanan Ermənistanın "yeni milli təhlükəsizlik strategiyası" ilə bağlı sənəd bu ölkənin işğalçı mahiyyətini və erməni xislətini bir daha nümayiş etdirmişdir. Məlum olur ki, bu sənəd həm hazırlanması formatına, həm də milli təhlükəsizliklə bağlı məsələlərə mifik erməni tarixindən yanaşıldığına görə qüsurlu və ziddiyyətli xarakter daşıyır.

Sənədin giriş hissəsində Ermənistanın baş naziri N.Paşinyan qondarma erməni tarixinə və "soyqırımı"na istinadlar edir, ermənilərin qonşu dövlətlərə qarşı ərazi iddialarına bəraət qazandırmağa çalışır, "məxməri inqilab" vasitəsilə hakimiyyəti ələ keçirdikdən sonra guya Ermənistanın həyat tərzinin dəyişdiyini bildirir.

Beynəlxalq praktikaya görə, bu cür sənədlərdə hakimiyyətdə olan hansısa siyasi qüvvə təbliğ edilmir və orada dövlətin ümumi, uzunmüddətli təhlükəsizliklə bağlı baxışları öz əksini tapır. N.Paşinyanın yanaşması isə belə bir ənənənin əsasını qoyur ki, Ermənistanda hakimiyyətlər dəyişdikcə iqtidara gələn qüvvələrin hər biri "milli təhlükəsizlik strategiyası" adı altında özlərinin siyasi partiya və yaxud fraksiya maraqlarından çıxış edərək korporativ təbliğatla məşğul olacaqlar.

Ermənistanın milli təhlükəsizlik strategiyasında şovinist, ksenofob və irqçi baxışlar, erməni xalqının "böyüklüyü", onun digər xalqlardan "üstün olması" kimi faşizmi təbliğ edən iddialar özünü açıq şəkildə büruzə verir. Sənəddə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yaranması səbəbləri və problemin həlli istiqamətində aparılan danışıqların mahiyyəti saxta arqumentlərlə təhrif edilir. Bir daha aydın olur ki, Ermənistan yeni "strategiyasında" BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrindəki tələblərə, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquqi prinsiplər çərçivəsində həlli ilə bağlı ATƏT, Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatı kimi qurumların qəbul etdikləri sənədlərə laqeyd münasibət göstərir.

N.Paşinyanın "strategiyasında" Dağlıq Qarabağdakı qondarma qurumun öz müqəddəratını təyinetmə hüququnun qeyd-şərtsiz tanınması iddiasının irəli sürülməsi Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal faktını ört-basdır etmək məqsədi daşıyır.

Beynəlxalq hüquqi normalardan yanaşsaq, görərik ki, öz müqəddəratını təyinetmə prinsipi Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə aid edilə bilməz. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "Bütövlükdə Ermənistana və Dağlıq Qarabağ məsələsinə gəldikdə, öz müqəddəratını müəyyənetmə prinsipi işləmir, çünki erməni xalqı öz müqəddəratını bir dəfə müəyyən edib, onların erməni dövləti var, baxmayaraq ki, Azərbaycan torpağında yaradılıb. Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına biz heç cür imkan verə bilmərik". Buna görə də Ermənistanın beynəlxalq ictimaiyyəti aldatmağa və Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasında Azərbaycanı günahlandırmağa çalışması mənasızdır. Çünki Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin mahiyyətinin beynəlxalq səviyyədə ifşa olunması istiqamətində Prezident İlham Əliyev məqsədyönlü siyasət aparır, dünya birliyi Dağlıq Qarabağ münaqişəsinin səbəb və nəticələri ilə bağlı əsl həqiqətlərlə tanışdır. Buna bariz nümunə kimi, 2019-cu il oktyabrın 3-də Rusiyanın Soçi şəhərində keçirilmiş "Valday" Beynəlxalq Diskussiya Klubunun 16-cı toplantısında, həmin il oktyabrın 11-də MDB Dövlət Başçıları Şurasının Aşqabadda keçirilmiş iclasında, 2020-ci il fevralın 15-də Münxen Təhlükəsizlik Konfransında Prezident İlham Əliyevin Dağlıq Qarabağ münaqişəsinə dair Azərbaycanın qətiyyətli mövqeyini ifadə edən çıxışlarını göstərmək olar. Azərbaycan Prezidenti münaqişənin yaranması səbəbləri və onun aradan qaldırılması ilə bağlı aparılan danışıqlarda Ermənistanın qeyri-konstruktiv mövqe tutduğunu, işğalçılıq siyasətini davam etdirdiyini tutarlı faktlarla göstərmiş, N.Paşinyanın iddialarının əsassızlığını sübut edərək onu miskin siyasi vəziyyətə salmışdır.

Sənəddə guya Azərbaycanda ermənifobiyanın olduğu bildirilir, ermənilərə qarşı uydurma qırğınların həyata keçirilməsindən danışılır. Amma əsl reallıq isə bundan ibarətdir ki, Ermənistan tarixən azərbaycanlıları etnik təmizləməyə və deportasiyaya məruz qoymuşdur. Hazırda Azərbaycanın 20 faiz ərazisini Ermənistan işğal altında saxlayır. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhəri ermənilər tərəfindən yerlə-yeksan edilmiş, günahsız dinc əhaliyə, o cümlədən uşaqlara, qocalara, qadınlara divan tutularaq soyqırımı həyata keçirilmişdir. Erməni millətçilərinin insanlıqla bir araya sığmayan mürtəce faşist mahiyyəti Xocalı soyqırımında bütün çılpaqlığı ilə ortaya çıxır. Bütün bunlar Ermənistanda azərbaycanfobiyanın hökm sürdüyünü və xalqımıza qarşı nifrət hissinin aşılandığını göstərir.

Strategiyadan məlum olur ki, Ermənistan regionda sülhün və sabitliyin təmin olunmasında maraqlı deyil, qeyri-konstruktiv mövqe tutaraq qonşu dövlətlərlə münasibətləri daim gərginləşdirməyə çalışır. Sənəddə qondarma "erməni soyqırımı"na istinad olunmaqla Türkiyəyə qarşı ittihamlar da irəli sürülür ki, bunun əsas səbəblərindən biri Türkiyənin beynəlxalq hüquqdan çıxış edərək, Ermənistanı Azərbaycanın işğal edilmiş ərazilərini tərk etməyə çağırması, beynəlxalq təşkilatlar və xarici dövlətlərlə ikitərəfli münasibətlər çərçivəsində ölkəmizin ədalətli mövqeyini müdafiə etməsi ilə bağlıdır.

Sənəddə Ermənistanın millətlərarası və sivilizasiyalararası dialoqu dəstəkləməsi kimi iddiaların özünə yer tapması reallıqdan çox uzaqdır. Azərbaycanlılara qarşı etnik təmizləmə aparmış, xalqımızın mədəni-tarixi, dini abidələrini dağıtmış, mənimsəmiş Ermənistanda tolerant mühitin olduğunu bildirmək heç bir məntiqə sığmır. Əvvəlkindən fərqli olaraq yeni strategiyada erməni kilsəsinin funksiyaları genişləndirilir və onun üzərinə yeni missiyalar qoyulur. Daha bir maraqlı məqam isə ondan ibarətdir ki, əvvəlki "strategiya"da ermənіçiliyin yayılmasının xüsusi lokomotivi kimi yalnız erməni apostol kilsəsinin adı göstərilirdisə, yeni sənəddə bu siyahıya erməni katolik kilsəsi və erməni lüteran kilsəsi də əlavə edilmişdir. Strategiyada qeyd olunur ki, Ermənistan cəmiyyətində zorakılıq və ksenofobiyaya yer yoxdur. Halbuki Qafqaz regionunda yeganə mono-etnik ölkə olan və millətçi siyasət aparan Ermənistan multikultural dəyərlərdən nəinki uzaqdır, hətta dünya mədəniyyəti irsinə ciddi təhlükədir. Qaniçən, şovinist Qaregin Njdenin timsalında faşizmi təbliğ edən Ermənistandan başqa nə gözləmək olar ki?!

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli qərarı ilə təsdiq edilmiş "Dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı", "Ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı" və "Yerli əhəmiyyətli daşınmaz tarixi mədəniyyət abidələrinin siyahısı"na əsasən, dövlət qeydiyyatına görə, Azərbaycanın işğal olunmuş ərazilərində xalqımızın tarix və mədəniyyət abidələrinin ümumi sayı 900-dən çoxdur. Əslində, bu siyahıya düşməyən, xalqımızın Qarabağdakı varlığını, milli kimliyimizi özündə daşıyan minlərlə tarixi abidə olmuşdur. Bəzi məlumatlara görə, dövlət qeydiyyatında olmayan abidələrin sayı 1500-dən artıqdır, beynəlxalq əhəmiyyətli abidələrin sayı onlarladır, qəbiristanların sayı isə 900-dən çoxdur. İşğal altındakı torpaqlarımızda tarixi-dini abidələrin təqribi sayı 403-dür. Onlardan 67-si məscid, 144-ü məbəd, 192-si isə ziyarətgahdır.

Qeyd edək ki, xalqımızın dini-tarixi abidələrinə qarşı Ermənistanın təcavüzü müxtəlif istiqamətlər üzrə həyata keçirilir. Milli mənsubiyyəti və qədim tarixi, dini ənənələri özündə əks etdirən abidələr tamamilə uçurulur. Ermənilər İrəvandakı "Göy məscid"in və Şuşadakı "Yuxarı Gövhər ağa" məscidinin arxitektur xüsusiyyətlərini dəyişdirərək onları İran abidələri kimi qələmə verirlər. Burada əsas məqsəd azərbaycanlıların minilliklər ərzində yaşadıqları torpaqlarla bağlı tarixi keçmişini, mənəvi yaddaşını məhv etməkdir. Ermənilər İrəvanda "Şah Abbas" məscidi, "Buğakar", "Ağadədə" ziyarətgahları kimi çoxsaylı müqəddəs yerləri uçurmuş, Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı 7 rayonda "Aşağı Gövhər Ağa" məscidi, Ağdam Cümə məscidi, "Ağoğlan" məbədi, "Xudavəng" məbədi, "Tatev" məbədi, "Gəncəsər" məbədi və s. dağıtmış, yaxud erməniləşdirib-qriqoryanlaşdırmışdır.

Azərbaycanın işğal edilmiş ərazilərindəki ilk insan məskənlərindən olan Azıx və Tağlar mağaralarından, Qaraköpək və Üzərliktəpə kurqanlarından Ermənistan hərbi məqsədlər üçün istifadə edərək onları qəsdən dağıdır. Ermənilər Azıx mağarasında beynəlxalq hüququn norma və prinsiplərinə zidd olaraq arxeoloji qazıntılar həyata keçirir, qarət etdikləri tapıntıları İrəvana daşıyırlar. İşğal altında qalan torpaqlarımızdakı insanlıq və mülkiyyət əleyhinə olan cinayətlərə, mədəni irsin dağıdılmasına görə Ermənistan və separatçı Dağlıq Qaradağ rejimi məsuliyyət daşıyır. Ermənistanın xalqımıza məxsus abidələri dağıtması və yerli toponimləri məqsədli şəkildə dəyişdirməsi "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyası, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyası və "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESKO-nun 1972-ci il Konvensiyasının tələblərinə ziddir.

Təəssüf ki, beynəlxalq güc mərkəzlərinin apardığı "ikili standartlar" siyasəti Dağlıq Qarabağ münaqişəsinin həllini ləngidən əsas səbəblərdən biridir və bu hal Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirməsinə, hərbi təxribatlar törətməsinə rəvac verir. 2020-ci il iyulun 12-də Tovuz rayonu istiqamətində Ermənistanın atəşkəs rejimini kobud şəkildə pozaraq təxribata əl atması buna misal göstərmək olar. Azərbaycan Ordusu həmin vaxt Ermənistanın mənfur niyyətinin qarşısını aldı, sarsıdıcı atəş zərbələri endirərək düşmənin xeyli sayda hərbi canlı qüvvəsini, döyüş və nəqliyyat texnikasını, mühüm obyektlərini məhv etdi. Döyüşlərdə düşmənlə böyük fədakarlıqla vuruşan hərbçilərimizdən qəhrəmancasına şəhid olanlar da oldu, lakin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin göstərişi ilə Milli Ordumuz onların intiqamını aldı. Azərbaycan Ordusu döyüş əməliyyatları zamanı düşmənin üzərində şanlı qələbə qazanaraq, öz peşəkarlığını və üstünlüyünü, dövlətimizin hərbi gücünü bütün dünyaya nümayiş etdirdi. Ermənistan bir daha gördü ki, onun Azərbaycanla açıq döyüşdə qələbə qazanması qeyri-mümkündür. İyulun 12-də Ermənistanın Azərbaycanla sərhəddə təxribatlar törətməyə başlaması Türkiyə, Pakistan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Ukrayna kimi dövlətlər, bəzi ölkələrin qanunvericilik orqanları, rəsmi nümayəndələri tərəfindən pislənildi, eləcə də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, İslam Əməkdaşlıq Təşkilatı, GUAM və s. qurumlar Azərbaycana beynəlxalq dəstək verdilər və Ermənistanın təxribatı bu ölkə üçün bumeranq effekti yaratdı.

Ermənistanın işğal etdiyi ərazilərin müvəqqəti olaraq Azərbaycan Respublikasının hakimiyyət orqanlarının nəzarətindən kənarda qalması yalnız milli deyil, həm də regional təhlükəsizliyə mənfi təsir göstərir. Ermənistanın ölkəmizin torpaqlarının bir hissəsini işğal altında saxlaması və problemin siyasi yolla tənzimlənməsi çərçivəsində zəbt etdiyi əraziləri azad etməkdən imtina etməsi səbəbindən Azərbaycan beynəlxalq hüquq norma və prinsiplərə uyğun olaraq, ərazi bütövlüyünü bərpa etmək məqsədi ilə hərbi güc daxil olmaqla bütün lazımi vasitələrdən istifadə etmək hüququnu özündə saxlayır. Bu məqsədlə Azərbaycan Ordusu gücləndirilir, onun maddi-texniki bazası möhkəmləndirilir, dost

davamı səh. 7

# ERMƏNİSTANIN NÖVBƏTİ HƏYASIZLIĞI

əvvəli səh. 6

və qardaş ölkələrlə hərbi-siyasi münasibətlər inkişaf etdirilir. Bunun nəticəsidir ki, nüfuzlu "Global Firepower Index" (Hərbi Gücün Qlobal İndeksi) təşkilatının 2020-ci il üzrə "Ən güclü ordu" reytinqinə görə, Azərbaycan Ordusu dünyanın 138 dövlətinin orduları sırasında 64-cü yeri tutur. Siyahıda Gürcüstan 89-cu, Ermənistan isə 111-ci sıradadır. Azərbaycan Ordusu yalnız Cənubi Qafqazda deyil, həmçinin MDB məkanında lider mövqeyə malikdir. Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, illik plana uyğun olaraq 2020-ci il iyulun 29-dan avqustun 10-dək ölkəmizdə hər iki dövlətin quru qoşunları və hərbi hava qüvvələrinin iştirakı ilə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimlərinin keçirilməsi Azərbaycan Silahlı Qüvvələrinin döyüş təcrübəsinin artırılması istiqamətində atılan mühüm addımlardan biridir.

Hazırda Ermənistanda və dünyanın müxtəlif ölkələrində yaşayan erməni siyasətçilərinin özləri də KİV-də və sosial şəbəkələrdə açıq şəkildə etiraf edirlər ki, Ermənistan müstəqil və suveren dövlət deyil, vassal koloniyadır. Onların sözlərinə görə, iqtisadiyyatı başqa dövlətə məxsus, sərhədlərini başqa dövlətin qoruduğu Ermənistanı müstəqil dövlət adlandırmaq mümkün deyil. Buna görə də hərbi forpost olan Ermənistanı idarə edənlərin "müstəqil" Ermənistanın milli təhlükəsizliyi ilə bağlı hansısa strategiyasından danışmaları mənasızdır. Bu günlərdə N.Paşinyanın BBC-nin "HARD Talk" proqramına verdiyi müsahibə indiki Ermənistan rəhbərliyinin bədnam və bərbad siyasətinin məğzini bir daha aydın şəkildə göstərdi. Miflər və nağıllar üzərində özünə tarix yaradan, xəstəlik səviyyəsində millətçiliyə yoluxmuş və yoluxdurulmuş bu xalqın aqibəti məhz bu cür "liderlər" sayəsində acınacaqlı olacaqdır. Tarix dəfələrlə sübut etmişdir ki, şovinist, faşist, qatı millətçi azarı xalqlar üçün faciələrə gətirib çıxarır. N.Paşinyan öz sələflərinin səhvlərindən, ermənilərin tarixdəki yanlışlarından ibrət götürməmişdir və bu onun təqdim etdiyi "sənəd"də və çıxışlarında aydın formada görünür.

N.Paşinyan hakimiyyəti Ermənistanda əhalinin diqqətini üzləşdiyi böhrandan, qarşıdurmalardan və anarxiyadan yayındırmaq üçün milli təhlükəsizlik strategiyası adı altında ictimai rəyi öz xeyrinə dəyişməyə çalışır ki, bu da mümkün deyil. Hazırda Ermənistan işğalçı və şovinist siyasət aparmaqla beynəlxalq və regional təhlükəsizlik, bölgədə sülhün və sabitliyin təmin olunması üçün ciddi təhdid yaradır. Ermənistan tarixi saxtalaşdırmaq şousundan, ölkəmizə qarşı əsassız ərazi iddialarından əl çəkməli, beynəlxalq hüquqi tələbləri yerinə yetirərək işğal etdiyi Azərbaycan ərazilərini tərk etməlidir. Prezident İlham Əliyevin dediyi kimi, "Beynəlxalq hüququn normaları tam tətbiq edilməlidir, BMT Təhlükəsizlik Şurasının qətnamələri tam icra olunmalıdır, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü bərpa edilməlidir. Bu, prinsipial mövqedir. Bu mövqe tarixə və beynəlxalq hüquqa əsaslanır. Çünki Dağlıq Qarabağ bizim tarixi, əzəli torpağımızdır. Çünki bütün dünya, bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır və ona hörmətlə yanaşır. Dağlıq Qarabağ isə Azərbaycanın ayrılmaz hissəsidir".

**Mübariz QURBANLI,**
Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri,
Yeni Azərbaycan Partiyası İcra katibinin müavini
"Azərbaycan" qəzeti

# HƏZRƏT PEYĞƏMBƏRİN GƏNCLİYƏ VƏ GƏNCLƏRƏ MÜNASİBƏTİ





**Səyyad Aran**
*DQİDK sədrinin I müavini,*
*Filologiya elmlər namizədi*

Kainatın ən böyük müəllimi, son elçisi olan Məhəmməd peyğəmbər (s) gəncliyə və gənclərə xüsusi önəm, dəyər vermişdir. Sonuncu səmavi Elçi (s) gənclərlə mehriban, şəfqətli və gülərüz davrandığından onlar da ona ürəkdən bağlanmışlar. Həzrət Məhəmmədin (s) gəncləri təşviq edən isti və səmimi rəftarı sayəsində, gənc səhabələr canlarını, mallarını, ailələrini Allah yolunda fəda edəcək dərəcədə iman etmişlər. Məkkəlilərdən gördükləri təzyiqlər, işgəncələr, aclıq, mühasirə illəri onları əsla bu yoldan döndərməmişdir.

Peyğəmbərin (s) uşaqlara nə qədər böyük sevgi bəslədiyini kölə kimi satılmış Zeyd bin Hərisə hadisəsindən də anlamaq olar. Zeyd səkkiz yaşında ikən anası ilə birlikdə getdiyi qohumlarının yanında, bir başqa qəbilənin basqını əsnasında əsir alınmışdı. Əsirlər bazarından da Həzrət Xədicənin qardaşı oğlu Hakim bin Hizan tərəfindən 400 dirhəmə satın alınıb Məkkəyə gətirilmişdi. Həzrət Xədicə Zeydi qardaşı oğlundan almışdır. Peyğəmbər (s) Zeyd bin Hərisəni Xədicədən alaraq oğulluğa götürmüşdür. Atası onun yerini öyrənmiş, Həzrət Peyğəmbərdən (s) Zeydi istəmişdi. Allah Rəsulu (s) onu sərbəst buraxdığı halda, o atası ilə getməmiş, Rəsulullahın (s) yanında qalmışdı.

İslamı qəbul edən səhabələrin böyük əksəriyyəti otuz yaşdan aşağı olub. Bu gənclər arasında Həzrət Əli İslamın ilk günündən etibarən, hələ on yaşında ikən İslamın ilk mənsubu olma şərəfini qazananlardan olmuşdur. Onun böyük qardaşı Cəfər isə iyirmi, Zübeyr bin Avvam on iki, Xəbbab bin Ərət on altı, Kudamə bin Muazın iyirmi, Səd bin Əbu Vaqqas on doqquz, Uhud döyüşündə özünü Peyğəmbərimizə (s) sipər edən Talha bin Übeydullah on dörd və ya on səkkiz yaşlarında, Abdullah bin Məsud on altı yaşında müsəlman olmuş və bir çox səhabə gənc yaşda İslam ilə şərəflənmişlər. Məhəmməd peyğəmbər (s) mövzu ilə əlaqəli bir hədisində belə buyurur: "Mənə gəncliyin köməyi lütf edildi".

Həzrət Peyğəmbərin (s) həyatını və əshabı düşündükdə, nədənsə həmişə yetkin və yaşlı insanlar canlanır zehnimizdə. Qırx yaşında ikən peyğəmbərlik missiyasını qəbul edən Allah Rəsulu (s) ətrafındakı ilk müsəlmanlara baxdıqda, onlardan çoxunun gənclər olduğunu görürük.

Allah Rəsulunun (s) İslama dəvətini qəbul edən yalnız məkkəli gənclər deyil, mədinəli gənclər də bu ülvi mesajı, yaşlılardan əvvəl qəbul etmişlər. Təbuk səfərində bayrağı iyirmi yaşlı Zeyd bin Sabitə vermiş, eyni yaşda olan Usamə bin Zeydi Suriyaya göndərdiyi orduya başçı, iyirmi yaşlı Əttab ibn Əsidi isə Məkkə valisi təyin etmişdir.

Dinimizin ən əhəmiyyətli qaynağı olan Peyğəmbər sünnəsinin bizə çatmasında mühüm vəzifəni yenə gənc səhabələr üzərlərinə götürmüşlər. Həzrət Peyğəmbər (s) gənclərin elmli yetişməsinə əhəmiyyət vermiş, vəhy katiblərini də gənclərdən seçmişdir. İslama dəvət məktublarını gənclərə yazdırmış, bəzi gəncləri o dövrdə çox ehtiyac duyulan xarici dilləri öyrənməyə təşviq etmiş və "Gəncliyində elm öyrənən daşdakı damğa kimi, ahıl çağında öyrənən isə su üzərinə yazı yazan kimidir" buyurmuşdur.

Allah Rəsulu (s) gənclərlə hər zaman səbirlə, təmkinlə davranardı. İkinci xəlifə Həzrət Ömərin oğlu Abdullah atasına aid bir dəvənin üstündə Peyğəmbərlə (s) birlikdə səfərlər edirdi. Dəvə daha sürətlə hərəkət edib Peyğəmbərin (s) dəvəsini ötürdü. Ömər oğluna "Abdullah, Peyğəmbərin qabağına keçmək yaxşı deyil" dedi. Bu sözü eşidən Peyğəmbərimiz (s) Ömərə "Bu dəvəni mənə sat" buyurdu. Ömər də razılaşdı. O dəvəni aldıqdan sonra "Bu dəvə sənindir Abdullah, istədiyini elə" buyurdu.

Əbu Mahsurə adlı səhabədən belə rəvayət olunur: "Rəsulullah (s) Huneyndən qayıdırdı. Mən də 10 məkkəli ilə birlikdəydim. Rəsulullahın (s) müəzzini namaz üçün azan oxumağa başladıqda biz onlara lağ etdik. O (s), bizi eşitmişdi. Azan bitdikdən sonra bizi yanına çağırıb soruşdu: "İçinizdə gözəl səsi olan var? Hansınızın səsi daha gurdur?", - deyə soruşduqda, məni göstərdilər. O (s), məndən yüksək səslə azan oxumağımı istədi. Rəsulullahı (s) və azanı sevmədiyim halda çarəsiz qalxdım. Mənə azan oxumağı öyrətdi. Azanı oxuyub bitirdikdən sonra da mənə bir kisə gümüş pul verdi. Başımı sığallayıb mübarək olsun dedi. Mən: "Ey Allahın Elçisi, Məkkədə azan oxumağıma icazə ver", - deyə xahiş etdim. O da: "İcazə verdim" buyurdu. Həmin an Rəsulullaha (s) qarşı ürəyimdəki kin yox oldu, qəlbim sevgi ilə dolub daşırdı...

Məhəmməd peyğəmbər (s), dindar gənclərin əldə edəcəyi savabları bu hədislə müjdələyirdi: "Axirətdə insan beş şeydən sorğuya çəkilməyincə Allahın hüzurundan ayrılmaz: ömrünü harda tükətdiyindən, gəncliyini necə keçirdiyindən, malını, sərvətini hardan qazanıb, nələrə xərclədiyindən və bildikləri ilə əməl edib etmədiyindən".

Beləliklə, Həzrət Məhəmməd peyğəmbərin (s) gənclərlə bağlı münasibətinə baxdıqda, Onun bütün səy və hədəfinin, inanclı, dindar, əxlaqlı, iffətli, eyni zamanda savadlı gənclik görmək istədiyinin şahidi oluruq.

# MÜBARİZ QURBANLI: MÖMİNLƏRƏ MƏHƏRRƏMLİK MƏRASİMLƏRİNİ ÖZ EVLƏRİNDƏ AİLƏ ÜZVLƏRİ İLƏ BİRLİKDƏ TƏŞKİL ETMƏLƏRİ TÖVSİYƏ OLUNUR

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının Trend-ə müsahibəsi*



- Mübariz müəllim, koronavirus pandemiyası dünya ölkələrini narahat edən ciddi problemə çevrilib. Pandemiya mənəvi sahəyə də öz təsirindən yan keçməyib. Bu barədə fikirlərinizi bilmək istərdik.

- Koronavirus pandemiyası hələ də insan sağlamlığına böyük təhlükə olmaqda davam edir. Onun təhlükəsi hansısa region və ya ölkə ilə məhdudlaşmır, qlobal xarakter daşıyır. Amerika, Hindistan, Rusiya, İran və digər ölkələrdə hər gün minlərlə insan pandemiyanın qurbanı olur. Ümumdünya Səhiyyə Təşkilatının, aparıcı araşdırma mərkəzlərinin ekspertlərinin rəyinə görə, koronavirus infeksiyasının birbaşa müalicəsi üçün dərman və ya peyvənd hazırlanmayana qədər ona qarşı ən effektiv mübarizə yolu izolyasiya tədbirləri həyata keçirmək, fərdi gigiyenaya diqqəti artırmaq və qoruyucu vasitələrdən istifadə etməkdir. Hazırda, demək olar ki, dünyanın hər yerində bu ümumbəşəri bəlanın qarşısının alınması və onun fəsadlarının minimalizə etmək məqsədilə cəmiyyətin bütün sahələrində, o cümlədən mənəviyyat sahəsində də müəyyən məhdudlaşdırıcı tədbirlər həyata keçirilir, təhsil müəssisələri, mədəniyyət ocaqları və ibadət evlərinin fəaliyyətinə qadağalar tətbiq olunur.

Ötən dövr ərzində müsəlmanlar Ramazan və Qurban, xristianlar Pasxa bayramlarını məscid və kilsələrdə qeyd edə bilməyiblər. Hətta, İslamın inanc sistemində önəmli yeri olan və vacib əməllərdən sayılan Həcc ziyarəti çox məhdud çərçivədə qeyd olundu, dünya müsəlmanlarının Kəbə evini ziyarət etmələrinə icazə verilmədi. Eyni zamanda, İran və İraqda yerləşən, azərbaycanlı zəvvarların da ziyarət etdiyi müqəddəs məkanların fəaliyyətinə müəyyən qadağalar tətbiq olundu.

Azərbaycanda koronavirus pandemiyasına qarşı mübarizə tədbirləri ölkəmizdə ilk yoluxma halı qeydə alınmamışdan əvvəl başlanılmışdı. Prezident İlham Əliyev tərəfindən həmin vaxtdan etibarən mübarizə tədbirləri nəzarət götürüldü, əhalinin sağlamlığı və insan həyatının qorunması əsas istiqamət kimi müəyyənləşdirildi. Bu məqsədlə Nazirlər Kabineti yanında Opretiv Qərargah yaradıldı, tibbi, sanitar-epidemoloji vəziyyəti öyrənmək və qabaqlayıcı addımların atılması üçün ekspert qrupları təşkil olundu, Koronavirusla Mübarizəyə Dəstək Fondu təsis edildi. Minlərlə vətəndaşımız, o cümlədən din xadimlərimiz dövlət başçısının bu təşəbbüsünə dəstək verdi.

Mart ayının əvvəllərindən etibarən ÜST və yerli ekspertlərin tövsiyələri nəzərə alınaraq Operativ Qərargah tərəfindən ölkə ərazisində sərt karantin rejiminin tətbiq olunmasına qərar verildi. 17 mart 2020-ci il tarixli qərara əsasən, kütləvi tədbirlərin keçirildiyi bütün qapalı məkanların, o cümlədən ibadət evlərinin fəaliyyəti dayandırıldı. Məlumat üçün deməliyəm ki, buna qədər Azərbaycanda fəaliyyət göstərən konfessiyaların rəhbərləri məsələyə öz münasibətlərini bildirmişdilər. Mart ayının 5-də Qafqaz Müsəlmanları İdarəsində keçirilmiş iclasda pandemiya dövründə ibadət evlərinin fəaliyyəti ilə bağlı bəyannamə qəbul edildi. Həmin bəyannamədə dindarlara moizə və birgə ibadətlərin təxirə salınması, mümkün olduğu qədər ibadətlərin evdə yerinə yetirilməsi, kütləvi mərasimlərin, mövlud və şəhadət günlərinin, o cümlədən ehsan mərasimlərinin keçirilməməsi məsləhət bilindi. Ramazan və Qurban bayramları ərəfəsində QMİ tərəfindən verilmiş fətvalarda möminlərə namazlarını ailə daxilində qılınması, karantin qaydalarına riayət olunması tövsiyə olundu. Ramazan və Qurban bayramı namazları məscidlərdə qılınmadı.

- Dini ayinlərin, mərasimlərin keçirilməsinə də təsir edən pandemiya şəraitində ibadətlər də dövrün tələblərinə uyğun həyata keçirilməsinə bəzi qüvvələr başqa don geyindirməyə çalışırlar. Bu məsələyə münasibətiniz?

- Görülmüş tədbirlər nəticəsində ölkəmizdə koronavirus infeksiyasına yoluxma sayının azalması, bir sıra sahələrdə karantin rejimi qaydalarının yumşaldılması ilə eyni vaxtda məscidlərin açılması ilə bağlı müzakirələr aparılmağa və çağırışlar səsləndirilməyə başlanıldı. Bəziləri bunu qarşıdan məhərrəmlik ayının gəlməsi ilə əlaqələndirirək, məscidlərdə kütləvi tədbirlərin keçirilməməsi barədə qadağanın qüvvədə qalmasında Azərbaycan hökumətinin hansısa marağının olduğunu iddia edirlər.

Bildirməliyəm ki, Azərbaycan cəmiyyətində dini və mənəvi dəyərlərə həmişə münasibət birmənalı şəkildə yüksək olmuşdur. Ümumiyyətlə, belə məsələlər daim Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqəti və qayğısı ilə əhatə olunub. Dövlət başçısı mütəmadi olaraq vətəndaşların ölkədə dini etiqad azadlığını həyata keçirmələri üçün bütün şəraitin yaradılması, məscidlərin, ziyarətgahların tikilməsi, təmir-bərpası, dini icmalar və din xadimlərinin fəaliyyətinin dəstəklənməsi məqsədilə sərəncamlar imzalayır, göstərişlər verir. Bakının Təzə Pir, Əjdər bəy, Hacı Cavad, Şamaxı şəhər Cümə məscidləri, Bibiheybət, Bərdə rayonu İmamzadə, Gəncə şəhəri İmamzadə ziyarətgah kompleksləri dövlət vəsaiti hesabına tikilib və ya bərpa edilərək inanclı insanların istifadəsinə verilib. Hər il Prezident İlham Əliyev Şeyxülislam həzrətlərinin təşkil etdiyi iftar süfrələrində iştirak edir, mütəmadi olaraq dini bayramlar və digər əlamətdar günlərdə möminlərlə bir araya gəlir. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu tərəfindən bölgələrdə iftar məclisləri təşkil edilir. Dövlət başçısı və birinci xanımın bölgə, habelə xarici səfərlərində müqəddəs məkanların ziyarət edilməsi xüsusi əhəmiyyət daşıyır.

Qeyd edilənlərə əsasən bildirməliyik ki, pandemiya ilə əlaqədar məscidlərin fəaliyyətinin məhdudlaşdırılması qərarının qüvvədə qalmasını Azərbaycan dövlətinin məqsədli siyasəti kimi təqdim olunması yolverilməzdir. Xüsusilə də insanların sağlamlığı, həyatı təhlükə altında olduğu dövrdə atılan zəruri addımlarda mahiyyətinə uyğun olmayan mənaların axtarılması qərəzli olmaqla yanaşı, cəmiyyət qarşısında məsuliyyətsizlik kimi qiymətləndirilməlidir. Bu məsələdə yanlış müqayisələr əhali arasında çaşqınlığa və arzuolunmaz nəticələrə səbəb ola bilər.

Ümumiyyətlə, koronavirusla bağlı izolyasiya tədbirləri yalnız Azərbaycanda tətbiq olunmur. Dünyanın əksər yerlərində, o cümlədən müsəlman dövlətlərində də COVID-19 pandemiyası ilə mübarizə tədbirləri çərçivəsində ibadət evlərinin fəaliyyəti dayandırılıb və ya kütləvi dini mərasimlərin keçirilməsi qadağan edilib. Bizimlə qonşu ölkələrdə, Türkiyə, İran, Gürcüstan və Rusiyada da sərt izolyasiya tədbirləri həyata keçirilib və müxtəlif formalarda hələ davam etməkdədir. İranda mart ayından, Türkiyədə isə aprel ayından etibarən məscidlər və digər ibadət evlərinin fəaliyyəti dayandırıldı. May və iyun aylarında bu ölkələrdə COVID-19-a yoluxma hallarının sayının azalması ilə mərhələli şəkildə və müəyyən qaydalara riayət etmək şərtilə məscidlərin fəaliyyətə başlamasına icazə verildi. Lakin həmin ölkələrdə hazırda virusa yoluxanların sayında artım müşahidə olunur ki, bu da mütəxəssislər tərəfindən narahatlıqla qarşılanır və yenidən sərt izolyasiya tədbirlərinin tətbiq edilməsi ilə bağlı müzakirələrə başlanılıb. Digər bir müsəlman ölkəsi, Azərbaycan möminləri üçün əhəmiyyətli olan İraqda da koronavirusla mübarizə çərçivəsində ölkə ərazisində yerləşən müqəddəs məkanlarda və məscidlərdə kütləvi dini mərasimlərin keçirilməsinə məhdudiyyətlər tətbiq olunmaqdadır. Bu ölkənin nüfuzlu din xadimləri və alimləri qarşıdan gələn Məhərrəm ayı mərasimləri ilə bağlı müraciət ünvanlayaraq möminlərə Məhərrəmlik mərasimlərini öz evlərində ailə üzvləri ilə keçirmələrini, sanitar-gigiyenik qaydalara riayət olunmasını tövsiyə ediblər. Din xadimlərinə fəaliyyətlərini televiziyalar, internet və onlayn informasiya vasitələri üzərindən həyata keçirmək, dindarlara kütləvi toplantılardan uzaq durmaq barədə çağırışlar ediblər.

Son 10 gündə Azərbaycanda koronavirusa yoluxanların sayında kəskin azalma qeydə alındı. Gündəlik yoluxma sayı yüzün altına düşdü və karantin rejimi qaydalarının mərhələli yüngülləşdirmə prosesinə başlanıldı. Lakin son 3 gündə yoluxma sayında yenidən artım müşahidə olunmaqdadır. Mütəxəssislər bu dalğalanmaya və digər ölkələrin təcrübələrinə əsasən arxayınlaşmamağı və ehtiyatı əldən verməməyi tövsiyə edirlər. Hazırkı məqamda kütləvi tədbirlər keçirilən bütün məkanlarda, böyük ticarət mərkəzlərinin, həmçinin, ibadət evlərinin fəaliyyətə başlamasını məqsədəuyğun hesab etmirlər. Artıq Operativ Qərargah tərəfindən Azərbaycanda karantin rejiminin müddəti avqust ayının 31-ə dək uzadılıb. Həmin tarixədək ibadət evlərinin fəaliyyətinə icazə verilməsi gözlənilmir.

Bu məsələyə azərbaycanlı möminlər və din xadimləri də artıq münasibətlərini bildiriblər. Onlar mütəxəssislərin rəyinə yüksək etimad göstərərək Məhərrəmlik mərasimlərində onminlərlə möminin iştirak etdiyini nəzərə alaraq bu mərasimlər zamanı sanitar-gigiyenik, sosial məsafənin saxlanması və digər qaydalara riayət olunmasına nəzarət edilməsinin mümkünsüz olduğunun vurğulayırlar. Din xadimlərinin insanların mənəvi aləmi ilə yanaşı, onların sağlamlığının qorunmasına da məsuliyyət daşıdıqlarını bildiriblər. Artıq bəzi din xadimləri Məhərrəm ayı ərzində internet vasitə ilə canlı yayım edəcəklərini, dinimizin bu ali dəyəri barədə verilişlər hazırlayacaqlarını açıqlayıblar.

Yeri gəlmişkən, bu gün Qafqaz Müsəlmanları İdarəsi tərəfindən keçirilən onlayn toplantıda səsləndirilən QMİ-nin Qazılar Şurasının müraciətində də bir sıra önəmli məqamlar öz əksini tapıb. Müraciətdə öz əksini tapan məqamlara qarşı din xadimlərimiz xüsusi diqqət yetirməli, bu həssas dönəmdə bu məsələdən təxribatlar üçün istifadəyə imkan verməməlidirlər.

Sonda bildirmək istərdim ki, Azərbaycan xalqı tarixinin ən çətin dövrlərində də öz dini-mənəvi dəyərlərinə sadiq qalmışdır. Dinimizi qoruyaraq bugünkü nəslə gətirib çatdırmışlar. Hazırda məscidlərmizdə hər gün vaxtlı-vaxtında azanlar oxunmaqdadır, möminlərimiz bu bəlanın tezliklə bitməsi üçün dualar etməkdədirlər. Ümid edirəm ki, yaxın vaxtlarda dünya bu bəladan xilas olacaq, yenidən normal həyatımıza dönəcəyik. Möminlərimiz yenidən məscidlərimizdə öz vacib ibadətlərini sərbəst şəkildə yerinə yetirəcəklər.

Eyni zamanda qeyd etməliyəm ki, biz bu prosesin sürətlənməsinə töhfə də verə bilərik. Xəstəliklə mübarizənin ön cəbhəsində olan həkimlərimiz, əsgərlərimiz, polislərimiz artıq neçə aylardır ki, böyük əzmlə çalışırlar. Onlardan bəziləri evlərinə, ailələrinin yanına belə gedə bilmirlər, bəziləri bu mübarizədə həyatlarını itiriblər. Biz hamımız onlara və onların ailələrinə mənəvi dəstək üçün, həmçinin, risk qrupuna daxil olan yaşlı insanlarımız, analarımız, atalarımız, nənə-babalarımız və xəstə yaxınlarımız üçün səylərimizi birləşdirməliyik. Bunun üçün bizdən sosial məsafə saxlamaq, fərdi gigiyenamıza diqqəti artırmaq və qoruyucu vasitələrdən istifadə etmək kimi sadə qaydalara riayət etmək tələb olunur.

# "MƏNƏVİ BORC" FİLMİNİN TƏQDİMATI OLUB

Avqustun 12-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Mənəvi Dəyərlərin Təbliği Fondunun dəstəyi, "Azərbaycan Bibliya Cəmiyyəti"nin sifarişi ilə çəkilən "Mənəvi borc" filminin video formatda təqdimatı keçirilib.

Videokonfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov, ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların nümayəndələri iştirak ediblər.

Müzakirələr zamanı bildirilib ki, filmdə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən koronavirus pandemiyasının (COVID-19) yayıldığı ilk günlərdən mübarizə istiqamətində atılmış mühüm addımlardan, bu sahədə də ölkəmizin dünya üçün örnək olmasından bəhs edilir. Belə bir filmin çəkilməsində məqsəd Azərbaycan vətəndaşlarını daha məsuliyyətli olmağa çağırmaq və mənəvi borclarının bir daha yada salınmasıdır. Bəzi vətəndaşların mövcud preventiv tədbirlərin şərtlərinə, tibbi-profilaktik qaydalara əməl etməməsi nəticəsində yoluxmaların sayının artması riski bir daha diqqətə çatdırılıb.

"Mənəvi borc" filmində vətəndaşlarımızın dövlətin koronavirus pandemiyası ilə mübarizədə müəyyən etdiyi qayda-qanunlara əməl etməsinin, eləcə də bu istiqamətdə onların üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsinin vacibliyi öz əksini tapıb. Filmdə qaydalara əməl etməyin vətəndaşlıq məsuliyyəti ilə yanaşı, həm də mənəvi borc olması vurğulanıb. Həmçinin qeyd olunub ki, din xadimləri, dini icmalar mənəvi borc məsələsini daima diqqət mərkəzində saxlamalı və təbliğ etməlidirlər. Çünki belə bir deyim var: "Dünyanı mənəviyyat xilas edəcək". Bu, doğrudan da, belədir.



Filmdə nəinki Azərbaycan, bütövlükdə bəşəriyyət üçün təhlükəli hesab olunan koronavirus pandemiyası ilə mübarizə ilə bağlı müəyyən edilmiş qaydalara əməl etməyin respublikamızda mövcud olan həmrəyliyin, birliyin, o cümlədən tolerantlığın, multikulturalizmin daha da güclənməsinə, eləcə də iqtisadi fəallığa xidmət edəcəyi də qeyd olunub.

# PANDEMİYA DÖVRÜNDƏ KÜTLƏVİ DİNİ MƏRASİMLƏR: ADAPTASİYA ZƏRURƏTİ



**Sadiq MİRZƏYEV,**
*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri*

Milyardlarla insanın həyat tərzini dəyişdirmək üçün SARS-CoV-2 virusuna cəmi bir neçə ay kifayət etdi. Özü də o, təkcə orqanizmimizə deyil, həyatımızın bütün sahələrinə öz mənfi təsirlərini göstərdi və göstərməkdədir. Mütəxəssislərin proqnozlarına görə, dünyanı ağuşuna alan koronavirus pandemiyasının yaratdığı yeni qaydalar və şərtlərin nəticələrini biz hələ uzun zaman hiss edəcəyik: pandemiya tariximizdə dərin iz buraxacaq və həyatımızı yenidən düşünməyə məcbur edən hadisəyə çevriləcəkdir. Digər tərəfdən, pandemiya həm də yeni şəraitə adaptasiya bacarıqlarımızın üzə çıxmasına təkan verdi. Gözəgörünməz düşmənlə üz-üzə qalan bəşəriyyət əməkdaşlıq etməli, öz qüvvələrini səfərbər etməli və yeni dünya nizamına alışmalı idi.

İnsanlar pandemiya ucbatından kütləvi dini mərasimlərdən uzaq durmaq məcburiyyətində qaldılar. Dünyanın əksər ölkələrində dini ibadət yerlərinin və ziyarətgahların fəaliyyəti həm də inzibati qaydada məhdudlaşdırıldı, kütləvi ibadətlər və tədbirlər ləğv edildi. Müxtəlif ölkələrin dini təşkilatları və ruhaniləri karantin tədbirlərinə, o cümlədən dini ibadət və ayinlərə qoyulan məhdudiyyətlərə riayət etməklə dövlətə dəstəklərini ifadə etdilər. Çünki insanlar arasında fiziki təmasın ciddi şəkildə məhdudlaşdırılması infeksiyanın yayılmasının minimuma endirilməsində hələ də yeganə təsirli vasitə hesab olunur. Buna görə də dünyadakı dinlər və onların ardıcılları, o cümlədən İslam dini və müsəlmanlar yeni reallığa uyğunlaşmağa başladılar. Bir sözlə, inzibati üsullar, həmçinin ruhanilərin müvafiq fətva və məhdudlaşdırıcı tövsiyələrinin tətbiqi ilə epidemioloji təhdidlərə vaxtında və düzgün cavab verilməsi cəmiyyətdə sosial sabitliyin qorunmasına kömək etdi, eyni zamanda dindarlar arasında infeksiyanın geniş yayılmasının qarşısını aldı.

Hazırda bütün dünyada koronavirus pandemiyası ilə əlaqədar məhdudiyyətlər davam edir. Bir sıra ölkələr, o cümlədən Azərbaycan müəyyən karantin qaydalarını nisbətən yüngülləşdirsə də, bəzilərini saxladı. Böyük iqtisadi itkilərə baxmayaraq, Azərbaycan dövləti tərəfindən dünyada yayılmağa başladığı ilk dövrdən etibarən pandemiyanın geniş yayılmasının qarşısının alınması istiqamətində sistemli və məqsədyönlü işlər görüldü. Dövlət başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq, COVİD 19 infeksiyanın ehtimal olunan bütün ocaqlarını məhv etmək və vəziyyət nəzarətdə saxlamaq üçün qabaqlayıcı addımlar atıldı. Belə ki, Prezident İlham Əliyevin Sərəncamı ilə yanvarın 24-də epidemioloji vəziyyətin idarə olunması və nəzarətdə saxlanılması məqsədilə Nazirlər Kabineti yanında Operativ Qərargah yaradıldı, koronavirus pandemiyası ilə əlaqədar ölkə üzrə müəyyən məhdudiyyətlər tətbiq olundu. Pandemiyaya qarşı önləyici mübarizə sahəsində həyata keçirilən tədbirlər çərçivəsində tibb müəssisələrinə və tibbi avadanlığa artan tələbatın qarşılanması, infeksiyaya yoluxmuş xəstələrin müalicəsinin səmərəli təşkili məqsədilə modul tipli xəstəxanalar inşa edildi və s. işlər görüldü. Çünki dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşlarının sağlamlığı və sosial rifah halının yaxşılaşdırılması dayanır.

Hazırda vəziyyətin necə dəyişəcəyini, yəni yoluxmanın artacağını, yaxud azalacağını, virusun nə zaman yoxa çıxacağını dəqiq proqnozlaşdırmaq mümkün deyil. Bu səbəbdən, virusun qarşısını almaq və vəziyyəti nəzarətdə saxlamaq məqsədilə bir sıra məhdudiyyətlər hələ də davam edir. Bu məhdudiyyətlərdən biri də ibadət ocaqlarının, o cümlədən məscidlərin fəaliyyəti ilə bağlı məhdudiyyətin saxlanılmasıdır. (Bildiyimiz kimi, mart ayının 5-də Qafqaz Müsəlmanları İdarəsində (QMİ) ölkəmizdəki bütün dini konfessiyaların rəhbərlərinin iştirakı ilə keçirilən toplantıda dini icmalara və dindarlara dini ayinləri evlərində yerinə yetirmələri ilə bağlı tövsiyə və çağırışlar edildi. Mart ayının 18-dən isə qapalı məkanlarda dini ayinlərin icra edilməsi Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən məhdudlaşdırıldı. Həmin dövrdən etibarən bütün ibadət evlərində, o cümlədən məscidlərdə dini ayinlərin icrası dayandırıldı.) Ona görə də bu il ibadət ocaqlarında pandemiya və karantin dövrünə təsadüf edən Məhərrəmlik tədbirlərinin, xüsusilə də Aşura mərasiminin keçirilməməsi nəzərdə tutulub. Bununla bağlı QMİ-nin Qazılar Şurasının yaydığı müraciətdə bildirilir ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən bu il Məhərrəmlik dönəmində məscid və ziyarətgahlarda təziyə mərasimləri keçirilməyəcəkdir.

Məhərrəm ayı müsəlmanlar üçün təkcə yeni ilin gəlişini xəbər vermir, eyni zamanda İslam tarixinə ən faciəli hadisə qurbanları kimi düşmüş Kərbəla şəhidlərinin növbəti ildönümünün keçirilməsi ilə səciyyələnir. Hər il Məhərrəm ayında müsəlmanlar ədalət uğrunda mübarizədə şəhidlik məqamına yüksəlmiş İmam Hüseynin xatirəsini yad edirlər. İmam Hüseynin qətli ilə bağlı Məhərrəm ayının ilk on günündə təşkil olunan kütləvi mərasimlərdə Quran oxunur, mərsiyələr deyilir, ehsanlar verilir və s. ayinlər icra olunur. Bu baxımdan dini mərasimləri keçirmək, bu ənənəni yaşatmaq istəyən insanların narahatlığı başadüşüləndir. Ancaq unutmamalıyıq ki, müsəlman təkcə özü üçün deyil, ailəsi, yaxınları, dostlarına görə də məsuliyyət daşıyır. Müsəlman ümmətinin və bütün bəşəriyyətin taleyi üçün ümumi məsuliyyətin bir hissəsi də onun üzərinə düşür. Mömin insanlar, xüsusilə çətin sınaqlar və böhranlar dövründə hər kəsə nümunə olmalıdırlar. Bildiyimiz kimi, yoluxucu xəstəlik olan vəba ilə bağlı Məhəmməd peyğəmbər (s) buyurmuşdur ki, bir yerdə vəba olduğunu eşitsəniz, oraya getməyin. Olduğunuz ərazidə də bu xəstəlik baş verərsə, xəstəlikdən qaçmaq üçün həmin ərazini tərk etməyin. İndi başqa çətinliklər, başqa xəstəliklər, viruslar var, ancaq Məhəmməd peyğəmbərin (s) çatdırmağa çalışdığı mahiyyət eynidir: yoluxucu xəstəliklərdən qorunmaq dini baxımdan bir məsuliyyət, borcdur, onun yayılmasına şərait yaratmaq isə günahdır. İlk növbədə, unutmaq olmaz ki, problemlər və sınaqlara, hər şeydən əvvəl, ruhi və psixoloji cəhətdən hazır olmalıyıq. Hər bir insanın xəstəliklər, təbii fəlakətlər, ölüm qarşısında qorxusu var, ancaq Allah-Təala qorxu hissini insana elə-belə deyil, onun özünün və başqalarının sağlamlığına və həyatına zərər verəcək hərəkətlərdən qoruyan vasitə kimi vermişdir. Dinimiz bizi həyatımızı, sağlamlığımızı qorumağa, diqqətli və ehtiyatlı olmağa səsləyir.

İslam sülh və əmin-amanlıq dinidir, onun əsasında "özünə və başqalarına zərər verməmək" dayanır. Bu, hər bir müsəlmanın hərəkətlərinin başlanğıc nöqtəsi olmalıdır. Çünki Allah-Təala bütün zərərli davranışları qadağan etmiş, onları günah kimi səciyyələndirmişdir. Müsəlmana yaraşan da budur: məsuliyyətsiz olmamaq, özünə və başqalarına zərər verməmək. Bir insan haradasa yoluxucu xəstəliyin olduğunu ehtimal edirsə, həmin yerə getməməli, özü yoluxucu xəstəliyə tutularsa, müalicə almalı, başqalarını yoluxdurmaqdan çəkinməlidir. Məşhur hədisdə Məhəmməd peyğəmbərin dediyi kimi: "Əvvəlcə dəvəni bağla, sonra Allaha təvəkkül et!" Eyni şəkildə, biz də sağlamlıq baxımından özümüz, övladlarımız, ailəmiz üçün bizdən asılı olan hər şeyi etməli, daha sonra Allaha arxalanaraq başımıza heç nə gəlməyəcəyinə ümid bəsləməliyik.

Odur ki, koronavirusla mübarizədə həm müsəlman, həm də vətəndaş kimi məsuliyyət daşıyırıq. Tibbi maskadan istifadə, sosial məsafə saxlamaq, gigiyenaya əməl etməklə yanaşı, ən mühüm mübarizə tədbirlərindən biri də kütləvi şəkildə toplaşmamaqdır. Çünki araşdırmalar göstərir ki, danışmaq virusun ötürülmə ehtimalını 10, öskürmək və asqırmaq isə təhlükəni 1000 dəfə artırır. Aşura kimi, ənənəvi olaraq, böyük kütləviliyi ilə seçilən, sosial məsafəyə əməl olunmasının təmini qeyri-mümkün olan mərasim insanların virusa yoluxma sayının artma ehtimalı baxımından böyük təhlükə yarada bilər.

Gəlin həm özümüzü, həm də cəmiyyəti qoruyaq!

# DİNİMİZİN ALİ DƏYƏRLƏRİNİ HANSISA MARAQLARIN, MƏSULİYYƏTSİZLİYİN QURBANINA ÇEVİRMƏK YOLVERİLMƏZDİR



Səkkiz ay ərzində 22 milyondan artıq insana yoluxan, 777 mindən çox can alan yeni növ koronavirus dünyanın bütün nizamını alt-üst etdi. Qlobal pandemiyanın dövlətlərin iqtisadi, siyasi, sosial və səhiyyə sahələri ilə yanaşı, humanitar və mənəviyyat sahəsinə də dərin təsirləri oldu.

Əksər ölkələrdə izolyasiya tədbirləri çərçivəsində təhsil müəssisələri, mədəniyyət ocaqları, o cümlədən məscid, kilsə, məbəd və s. ibadət yerlərinin fəaliyyəti dayandırıldı. Müsəlmanlar Ramazan ayı mərasimlərini, Qurban bayramını, xristianlar Pasxa, yəhudilər Pesax və digər dinlərin mənsubları bayram və əlamətdar günləri ənənəvi qaydalara uyğun olaraq ibadətxanalarda deyil, ev şəraitində məhdud səviyyədə qeyd etdilər. Səudiyyə Ərəbistanının Məkkə və Mədinə, İranın Qum, İraqın Nəcəf və Kərbəla şəhərlərində yerləşən müqəddəs məkanlara, o cümlədən Vatikanın Müqəddəs Pyotr meydanına zəvvarların ziyarəti qadağan olundu. Bir sözlə, koronavirus bütün sahələrdə olduğu kimi, din aləmində də öz qaydalarını diktə etdi.

İnsanların qapalı və açıq məkanlarda kütləvi şəkildə toplaşmağı virusun yayılmasına təkan verdiyi üçün İslam alimləri və din xadimləri dini mərasimlərin, ayinlərin keçirilməsi zamanı səhiyyə qurumlarının göstərişlərinə əməl edilməsini əsas meyar kimi qəbul etməyi vacib sayırlar.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə "Azərbaycan" qəzetinə açıqlamasında deyib ki, ölkəmizdə Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarı ilə mart ayından sərt karantin rejimi tətbiq olunmağa başladı. Sərnişindaşımada, ölkə sərhədlərinin bağlanması, təhsil müəssisələri, mədəniyyət ocaqları, o cümlədən mənəviyyat sahəsində izolyasiya tədbirlərinin həyata keçirilməsi ilə bağlı bir sıra addımlar atıldı. Operativ Qərargahın 13 mart 2020-ci il tarixli qərarı ilə qeyd olunan sahələrlə yanaşı, dəfn mərasimləri istisna olmaqla yas mərasimlərinin keçirilməsi qadağan edildi, Operativ Qərargahın 17 mart tarixli qərarı ilə isə bütün qapalı məkanların, o cümlədən ibadət evlərinin fəaliyyəti dayandırıldı.

C.Əlifzadə vurğulayıb ki, Azərbaycan dindarları, ruhaniləri və dini sahədə fəaliyyət göstərən digər şəxslər bu məsələyə olduqca həssas yanaşaraq yas mərasimləri, ibadət evlərinin fəaliyyəti və dini turizm barədə öz münasibətlərini Operativ Qərargahın sözügedən məsələlərlə bağlı qərarından öncə açıqladılar. Belə ki, fevralın 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində dini turizmlə məşğul olan şirkətlərin rəhbərlərinin iştirakı ilə görüş keçirildi. Görüşdə məlum oldu ki, turizm şirkətləri İran, İraq və Səudiyyə Ərəbistanında koronavirus infeksiyasının yayılmasını nəzərə alaraq, artıq bu ölkələrdə yerləşən ziyarətgahlara səfərləri dayandırıblar. Onlar vəziyyət dəyişməyənə qədər belə səfərləri həyata keçirmək niyyətlərinin olmadığını bildirdilər: "Eyni həssaslıq martın 5-də Qafqaz Müsəlmanları İdarəsində ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların rəhbərlərinin iştirakı ilə keçirilən iclasda nümayiş etdirildi. İclasda bu xəstəliyin Allahın imtahanı olduğu bildirilərək Quran ayələrinə istinadən hər kəs məsuliyyətli olmağa dəvət edildi. İclasın sonunda oxunan bəyanatda məscidlərdə moizə və birgə ibadətlərin təxirə salınması, mümkün olduğu qədər ibadətlərin evdə yerinə yetirilməsi, kütləvi mərasimlərin, mövlud və şəhadət günlərinin, ehsan mərasimlərinin keçirilməməsi tövsiyə olundu. Həmin tarixdən etibarən məscidlərin və digər ibadət evlərinin fəaliyyəti məhdudlaşdırılmağa başlanıldı. Bugünədək aparılmış monitorinqlərdə, daxil olan müraciətlərdə, dindarlar və ruhanilərlə görüşlərdə səsləndirilən yekdil fikir ondan ibarətdir ki, yoluxucu xəstəliklərin yayıldığı dövrdə həkimlərin və mütəxəssislərin rəyi elə dinin və ruhanilərin mövqeyidir. Sağlamlığın qorunması insanın ən ümdə vəzifəsidir".

Şöbə müdirinin sözlərinə görə, ümumiyyətlə, koronavirusa qarşı mübarizədə dünya dövlətlərinin həyata keçirdikləri tədbirlərə nəzər yetirəndə görürük ki, onlar daxili siyasi və sosial vəziyyətə, iqtisadi və maliyyə imkanlarına, eyni zamanda mənəvi dəyərlər sisteminə uyğun olaraq addımlar atırlar. Məsələn, Böyük Britaniya Krallığı, İtaliya kimi ölkələr xəstəliklə mübarizəyə bir az gec başladıqları və ya yanlış istiqamətdə addımlar atdıqları üçün qısa müddətdə xəstəxanalarda yer çatışmazlığı yarandı və xeyli sayda insan ölümü qeydə alındı. Bundan sonra həmin dövlətlər mübarizə metodunu dəyişərək sərt izolyasiya siyasəti yürütdülər ki, onun da nəticəsində xəstəliyin yayılmasını nəzarətə götürə bildilər. ABŞ, Braziliya kimi ölkələrdə xəstəliklə mübarizə siyasi xarakter aldı ki, nəticədə hələ də bu ölkələrdə dramatik vəziyyət davam etməkdədir: "Bizə yaxın olan, ortaq tarixi və mədəniyyəti bölüşdüyümüz İran və Türkiyədə koronavirusla mübarizədə izolyasiya tədbirləri mühüm rol oynayıb. İranda mart, Türkiyədə aprel ayından etibarən sərt izolyasiya tədbirləri həyata keçirildi, insanların kütləvi toplaşdığı yerlərin - məktəblərin, ticarət mərkəzlərinin, məscidlərin fəaliyyəti dayandırıldı ki, bunun da nəticəsində qısa müddətdə xəstəliyin yayılmasını nəzarətə ala bildilər. Lakin may və iyun aylarından etibarən bu ölkələrdə sosial və iqtisadi vəziyyət nəzərə alınaraq sərt karantin rejimi dəyişdirildi və normallaşma siyasəti yürüdülməyə başlanıldı. Ancaq təəssüflər olsun ki, bu normallaşma tədbirləri virusa yoluxma hallarının artmasına səbəb oldu. İran və Türkiyədə may və iyun aylarında gündəlik yoluxma hallarının sayı minin altına düşmüşdüsə, hazırda bu rəqəm İranda 2000, Türkiyədə isə 1200 civarındadır. Azərbaycanla mənəvi bağı olan digər bir ölkə - İraqda da koronavirusla mübarizə çərçivəsində ölkə ərazisində yerləşən müqəddəs məkanlar və məscidlərdə kütləvi tədbirlərin keçirilməsinin məhdudlaşdırılması ilə bağlı müəyyən tədbirlər həyata keçirildi. Bu ölkənin nüfuzlu din xadimləri və alimləri qarşıdan gələn Məhərrəm ayı mərasimləri ilə bağlı dünya müsəlmanlarına müraciət ünvanlayıblar. Həmin müraciətlərdə möminlərə insanların sağlamlığı göz önündə tutularaq Məhərrəmlik mərasimlərini öz evlərində və yaxın adamları ilə təşkil etmələri, sanitar-gigiyenik qaydalara riayət olunması tövsiyə olunub. Din xadimlərinə fəaliyyətlərini internet və onlayn informasiya vasitələri üzərindən həyata keçirmələrinə, dindarlara kütləvi toplantılardan uzaq durmağa çağırışlar ediblər".

Cahandar Əlifzadə qeyd edib ki, Azərbaycanda pandemiyanın ilk günündən etibarən Prezident İlham Əliyev tərəfindən virusla mübarizə istiqaməti müəyyənləşdirildi. Dövlət başçısının dəfələrlə ifadə etdiyi kimi, bu mübarizədə əsas prioritet əhalinin sağlamlığı, insan həyatının qorunmasıdır. Eyni zamanda ölkənin iqtisadi və sosial vəziyyətinin yaxşılaşdırılması üçün verilmiş qərarlar pandemiya ilə mübarizədə çoxşaxəli addımlar atmağa imkan verir. Hazırda ölkəmizdə koronavirus infeksiyasına yoluxma sayının azalması nəzərə alınaraq sərt karantin rejiminin yumşaldılması istiqamətində mərhələli şəkildə tədbirlər həyata keçirilir. Lakin hələ də qapalı məkanlarda yoluxma ehtimalının yüksək olduğundan, metro, iri ticarət mərkəzləri, iaşə obyektləri, eləcə də ibadət evlərinin fəaliyyətinə icazə verilməsi mütəxəssislər tərəfindən məqsədəuyğun sayılmır.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi rəsmisinin fikrincə, təəssüf doğuran məqam ondan ibarətdir ki, bəzi qüvvələr Azərbaycanda karantin rejimini, xüsusilə ibadət evlərinin fəaliyyətinə qoyulmuş məhdudiyyətləri yanlış müqayisələr aparmaqla və mahiyyətinə uyğun olmayan şəkildə təqdim etməklə cəmiyyətdə çaşqınlıq yaratmağa çalışırlar. Məscidlərin fəaliyyətinə icazə verilməməsində əsas səbəb olan əhalinin sağlamlığından başqa, digər maraq və məqsədin axtarışına çıxıblar: "Bəzən onların ifadələrindən elə təəssürat yaranır ki, guya Azərbaycanda məscidlərdə ibadət etməyiblər, yaxud da Məhərrəm ayı mərasimləri olmayıb. Artıq bu məsələ ilə bağlı ölkə ruhaniləri və möminləri öz mövqelərini ortaya qoyublar. Azərbaycan cəmiyyəti belə çağırışları sabotaj kimi qiymətləndirir, eyni zamanda insan həyatına və sağlamlığına laqeyd yanaşmanın dinimizin dəyərlərinə uyğun olmadığına inanır. Ümumiyyətlə, xalqımız dinimizin ali dəyərlərini hansısa maraqların, oyunların, məsuliyyətsizliyin qurbanına çevrilməsini yolverilməz hesab edir. Bir daha vurğulamaq istərdik ki, Azərbaycanda koronavirusla mübarizənin əsas istiqaməti əhalinin sağlamlığına, insan həyatının qorunmasına yönəlib. Unutmamalıyıq ki, koronavirus təhlükəsi hələ bitməyib. Bu təhlükə risk qrupuna daxil olan yaşlı insanlarımız, analarımız, atalarımız, nənə-babalarımız və xəstə yaxınlarımız üçün daha böyükdür. Əminik ki, xalqımız mənəviyyatımızın əsas dəyərlərindən olan Məhərrəm ayı mərasimlərini onun mahiyyətinə uyğun şəkildə həyata keçirəcək".

# TRAMP MİLLİ QVARDİYANI VİSKONSİNƏ GÖNDƏRİR




ABŞ səlahiyyətliləri iğtişaşların olduğu Viskonsin ştatının Kenoşa şəhərinə asayişi qorumaq və ictimai qaydanı bərpa etmək üçün federal qüvvələri və Milli Qvardiyanın əsgərlərini göndərəcək.

Bu barədə ABŞ prezidenti Donald Tramp "Twitter" səhifəsində yazıb.

"Amerika küçələrində soyğunçuluq, yanğın, zorakılığa və qanunsuzluğa dözməyəcəyik. Komandamın üzvləri Evers (Viskonsin qubernatoru Toni Evers – Red) ilə telefonda danışıb və o, federal yardımı qəbul etməyə razılıq verdi" Tramp bildirib.

Qeyd edək ki, 23 avqust tarixində afroamerikalı Ceykob Bleyk mübahisə edən iki qadını ayırmağa çalışıb. Hadisə yerinə polis cəlb olunub. Bleyk hüquq mühafizəçinin tələblərinə əməl etməyərək avtomobilinə əyləşməyə çalışıb. Onun nəqliyyat vasitəsinə minməsinə mane olmaq istəyən polis elektroşokerdən istifadə edib və silahdan atəş açıb.

Buna etiraz edən ştatın əhalisi nümayişlər keçirməyə başlayıb. Daha sonra etirazlar iğtişaşlarla əvəzlənib. Qubernator Evers bölgədə fövqəladə vəziyyət elan edib.

# PUTİN: "BELARUSDA RUSİYA QÜVVƏLƏRİNƏ EHTİYAC YOXDUR"

"Belarusda Rusiya qüvvələrinə hələlik ehtiyac yoxdur. Ümid edirəm ki, olmayacaq da. Bununla həm Moskvada, həm də Minskdə razıdırlar".

Bunu Rusiya Prezidenti Vladimir Putin söyləyib.

"Rusiyanın təhlükəsizlik sahəsində Belarus qarşısında öhdəlikləri var, Lukaşenko bu məsələni qaldırmışdı", - o vurğulayıb.

Ölkə başçısının sözlərinə görə, Belarusda durum hazırda tarazılaşır.

V.Putin bildirib ki, Belarus üçün hüquq-mühafizə orqanlarının əməkdaşlarından ibarət ehtiyat hazırlanıb.

O, həmçinin Belarusdakı güc strukturlarının fəaliyyətini qiymətləndirib: "Belarusun hüquq-mühafizə orqanları özlərini yetərincə təmkinli aparırlar".

## İRANDA MƏSCİDLƏRDƏ MATƏM MƏRASİMLƏRİ QADAĞAN EDİLİB



İranın Koronavirusla Milli Mübarizə Komitəsinin qərarına əsasən, Tehran vilayətinin məscidlərində matəm mərasimləri (məhərrəmlik mərasimləri) qadağan edilib.

Bu barədə Tehran vilayəti Məscidlərinin Məsələlərinin Araşdırılması üzrə Mərkəzinin qərarında qeyd olunub.

Tehran vilayətində koronavirus güclü şəkildə yayıldığına görə, rəsmilər yeni qərarın icrasının vacibliyini vurğulayıblar. Yeni qərar tənqidlərə məruz qalıb. Ancaq İran dini lideri Koronavirusla Milli Mübarizə Komitəsinin qərarlarının yerinə yetirilməsi ilə əlaqədar göstəriş verib. Buna əsasən, məscidlərin imamları, nümayəndələri və təşkilatçılar Məhərrəm ayında qapalı məkanlarda qısa zaman ərzində olsa belə, istənilən matəm mərasimlərini təşkil etməkdən çəkinməli, sadəcə, camaat namazını səhiyyə protokolları əsasında qılmaqla kifayətlənməlidirlər.

Həmçinin açıq məkanları (məscidlərin həyətləri və sairə) olan məscidlərdə matəm mərasimləri səhiyyə protokolları əsasında keçirilə bilər. Buna görə məscidlərin imamları insanları səhiyyə protokolları ilə əlaqədar məlumatlandırmalıdırlar.

## AZƏRBAYCANDAKI DİNİ KONFESSİYALARIN RƏHBƏRLƏRİ ŞƏHİDLƏRİN XATİRƏSİNİ YAD EDİBLƏR



Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə, Azərbaycandakı dini konfessiyaların rəhbərləri - Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr və Dağ Yəhudiləri Dini İcmasının rəhbəri Melih Yevdayev, QMİ sədrinin birinci müavini, müfti Salman Musayev qəhrəman Vətən oğullarının xatirəsini yad etmək üçün ikinci Fəxri xiyabanda olublar.

Ermənistan silahlı qüvvələrinin Tovuz istiqamətində törətdiyi hərbi təxribatın qarşısını alarkən şəhid olmuş general-mayor Polad Həşimovun, polkovnik İlqar Mirzəyevin 40-cı anım günündə onların məzarları başında Vətənimizin bütün şəhidlərinin ruhları üçün Quran oxunub, Allahdan rəhmət dilənib və məzarları üzərinə tər çiçəklər düzülüb.

## COVID-19 PANDEMİYASI BİR MİLYARD TƏLƏBƏ VƏ ŞAGİRDİN TƏHSİLİNƏ MANE OLUB

Koronavirus pandemiyası səbəbindən məktəb və ali təhsil müəssisələrinin bağlanması 160 ölkədə təxminən 1 milyard tələbə və şagirdin təhsil prosesinə mane olub.

Bu rəqəmi BMT-nin Baş katibi Antonio Quterreş iyul ayının ortalarına olan məlumata əsasən deyib. Onun sözlərinə görə, bundan başqa, dünya üzrə azı 40 min uşaq məktəbəqədər hazırlıqdan məhrum olub. Dərsləri onlayn, radio və televiziya vasitəsilə keçmək cəhdləri bütün təhsil alanları əhatə etməyib.

"Dünya böyük insan potensialının istifadəsiz qalması, qeyri-bərabərliyin kəskinləşməsi və təhsildə əldə olunan irəliləyişin itirilməsi ilə nəticələnə biləcək "nəsil fəlakəti" ilə üzləşib", - deyə Antonio Quterreş xəbərdarlıq edib.

Baş katib bu səbəbdən BMT-nin "Gələcəyimizi qoruyaq" şüarı altında yeni proqramının başladığını bildirib və COVID-19 pandemiyası nəzarət altına alındıqdan sonra bütün ölkələri məktəbləri açmağa çağırıb. Təşkilat bu işdə onlara kömək etməyə söz verib. BMT-nin Baş katibi məktəblərin fəaliyyətinin bərpası nəticəsində anaların iş yerlərinə qayıdacağını da müsbət hal kimi səciyyələndirib, həmçinin ölkələri büdcə vəsaitlərini bölən zaman təhsil xərclərini prioritet etməyə səsləyib.



## İSLAM MƏDƏNİYYƏTİ PAYTAXTI - 2016

## MALE

Cənubi Asiyada ada-dövlət olan Maldiv Respublikası Hind okeanında yerləşir. Onun tərkibinə daxil olan adalar qrupu Hindistan və Şri-Lankanın cənub-qərbinə qədər uzanır. Ərazisi təxminən 300 km², əhalisi isə 542 min nəfərdir. Əhalisinin sayına görə dünyada 173-cü yeri tutan Maldiv, ümumilikdə, 1200 adadan ibarətdir. Yaşayış olan 281 adadan 195-də maldivlilər məskunlaşmışlar, qalan 86 ada isə yalnız turizm üçün fəaliyyət göstərir. Ölkənin əhali sayına görə ən böyük şəhəri paytaxt Maledir. Ümumi sahəsi 5,8 km² olan Male adası mərkəzdə yerləşdiyi üçün "Kral adası" kimi tanınır.

1887-ci ildən Böyük Britaniyanın müstəmləkəsi olan Maldiv adaları 1965-ci ildə müstəqilliyini qazanıb. İlk dövrlərdə idarəçilik forması monarxiya olsa da, 1968-ci ilin 11 noyabrında respublika elan edilib. Ölkənin hazırkı konstitusiyası 7 avqust 2008-ci ildən qüvvədədir. 26 iyul Maldivdə mütəqillik günü kimi qeyd olunur.

Maldivlilər tarixən balıqçılıqla məşğul olublar. Ona görə də milli yeməklərində ən çox balıqdan istifadə olunur. Maldiv olduqca füsunkar təbiəti ilə seçilir. Buna görə hər ilə ölkəyə xeyli sayda turist gəlir. 1970-ci illərdən etibarən burada turizm sürətlə inkişaf etməyə başlayıb. Ölkə iqtisadiyyatının 20%-i turizmdən asılıdır. Turizmin inkişafı sənətkarlığın inkişafına da xidmət edib. Maldiv dövlətinin milli valyutası Maldiv rufiyası olsa da, ölkə ərazisində ABŞ dollarından da geniş istifadə olunur.

Maldivlilərin tarixi min illər öncəyə gedib çıxır. Ölkə əhalisinin təxminən 97%-ni müsəlmanlar təşkil edir. Müsəlman əhalisinin əksəriyyəti şafei məzhəbinə mənsubdur. Maldivə İslamı XII əsrdə ərəb tacirlərinin gətirdikləri deyilir. İslamdan əvvəl burada aparıcı din Buddizm və Hinduizm olub. Əhalinin dili Hind-Avropa dil ailəsindən olan divehi dilidir. Yazıda isə sağdan-sola yazılan tana üsulundan istifadə olunur. Eyni zamanda xalq arasında ərəb, hind və ingilis dilləri də işlədilir.



Maldivin ən qədim məscidi 1658-ci ildə sultan I İbrahim İsgəndər tərəfindən inşa edilən və Hukuru Miskiy adlandırılan cümə məscididir. Maledə yerləşən məscid, əslində, 1153-cü ildə maldivlilərin ilk müsəlman sultanı olan Məhəmməd ibn Abdullah tərəfindən inşa edilən məscidin yerində ucaldılıb. Onun tikintisində mərcan daşlarından istifadə olunub ki, bu da məscidə xüsusi yaraşıq verir. Turistlər yalnız müvafiq qurumlardan alınan icazə əsasında məscidə daxil ola bilərlər. Bu ibadət ocağı 2008-ci ildə UNESKO-nun Mədəni irs siyahısına salınmışdır.

Malenin digər möhtəşəm məscidi Sultan Məhəmməd Tukurufanu əl-Auzam adını daşıyan mərkəzi cümə məscididir. O, Maldivin ən böyük məscididir. 1984-cü ilin noyabrında açılan İslam Mərkəzinin tərkibinə daxil olan bu məsciddə eyni anda 5000-dən çox insan ibadət edə bilir. Onun parlaq qızılı günbəzi, gözəl divar oyması və ərəb xəttatlığı ilə bəzədilmiş daxili divarları da göz oxşayır. İslam Mərkəzində İslam İşləri Nazirliyi, rəsmi iclas və mərasimlərin keçirildiyi konfrans zalı, İslam kitabxanası və s. fəaliyyət göstərir.

Malenin ən maraqlı yerlərindən biri də 1952-ci ilin 11 noyabrında paytaxtda inşa edilən Maldiv Milli Muzeyidir ki, burada ölkənin Buddizm dövründən günümüzədək toplanan tarixi eksponatlar sərgilənir.

Hazırladı: **Tural Vəlizadə**

# CƏNNƏTLƏ CƏHƏNNƏMİN YOLAYRICINDA

Müsəlmanların əsas istinad mənbəyi olan Qurani-Kərimin ilk sözünün "Oxu!" əmri olmasına baxmayaraq, bu gün müsəlman cəmiyyətləri dünyada ən az kitab oxuyan, elm öyrənən toplumlar sırasında yer alır. Xüsusilə, gənclər elm öyrənməyə, elm yoluna üz tutmağa az maraq göstərirlər. Halbuki əyləncə mərkəzlərini, çayxanaları dolduran gənclər kitablara üz tutsalar, öz gələcəklərini daha sağlam təməllər üzərində qurarlar.

Qeyri-intellektual, cahil, elmsiz cəmiyyətin formalaşması özü ilə birgə bir sıra problemlər gətirir ki, bunların başında erkən nikah, boşanmalar, intihar, ailədaxili zorakılıq, xüsusilə də qadınlara qarşı şiddət gəlir. Bu, məsələnin bir tərəfidir. İkinci problem isə oxuyanların, məlumatlı olanların bildiklərini, oxuduqlarını öz həyatlarına tətbiq və yaxud bildiklərini ətrafındakılara təbliğ etməməsidir. Halbuki Allah Rəsulu (s) fayda verməyən elmdən həmişə Uca Yaradana sığınmışdır. Yunus Əmrə bunu çox gözəl şəkildə ifadə etmişdir:

*Elm - elm bilməkdir,*
*Elm özünü bilməkdir,*
*Sən özünü bilməzsən,*
*Bu, necə oxumaqdır?*

Deməli, yalnız oxumaq kifayət etmir. Oxumaq dürüstlüyü, yaxşılığı, ədalətli olmağı öyrənmək və bunu həyata keçirmək deməkdir. Oxumaq yalnız ağlı zənginləşdirməməli, həm də qəlbə, mənəviyyata xitab etməlidir.

Gənclər həyatda nəyəsə nail olmağın asan yollarını axtarırlar. Buna nail ola bilmədikdə, müvəffəqiyyətsizliyə uğradıqda, özünü təsdiqləyə bilmədikdə depressiyaya düşür, özlərinə qapanır, tənhalıq hissinə qapılırlar. Ailədaxili münaqişə və zorakılıq da burada az rol oynamır. Bəzi hallarda bu, həddən artıq həssas gənclərin intihar barədə düşünmələrinə belə, səbəb olur. Maraqlısı budur ki, aparılan antropoloji tədqiqatlar nəticəsində aydın olmuşdur ki, bəzi ibtidai qəbilələrdə intihar hallarına, ümumiyyətlə, təsadüf edilmir. Burada diqqəti çəkən məsələ niyə həmin qəbilələrdə intihar hadisələrinin olmadığı deyil, müasir dövrdə inkişaf etmiş cəmiyyətlərdə intihar edənlərin sayının çoxalmasıdır. Ola bilsin ki, bu hal qloballaşan dünyada insanların problemlərinin çoxalmasından, maddi rifah əldə etmək arzusunun artmasından qaynaqlanır. Ancaq istənilən halda, intihar heç bir cəmiyyətdə, heç bir səmavi dində yaxşı qarşılanmır. Təkcə "ən-Nisa" surəsinin 29-cu ayəsi intiharın Allah qatında böyük günah sayıldığını göstərmək baxımından kifayətdir: **"Ey iman gətirənlər! Qarşılıqlı razılıqla edilən alış-veriş müstəsna olmaqla, bir-birinizin mallarını haqsız bəhanələrlə (haqsız yerə) yeməyin və özünüzü öldürməyin! Həqiqətən, Allah sizə qarşı mərhəmətlidir!"**

Ayəyə diqqət yetirək: **"Həqiqətən, Allah sizə qarşı mərhəmətlidir!"** buyurur. Mərhəmət elə bir məna dərinliyinə malikdir ki, insanları, heyvanları, bitkiləri,



əşyaları ilə birlikdə bütün kainatı ulu çinar kimi qucaqlayar. Şiddətin yandıran istisindən, qəzəbin məhvedici selindən qaçan hər can onun kölgəsində dinclik və güvən tapar. O, öz gücünü mərhəmətlilərin ən mərhəmətlisi olan Uca Yaradandan alır. Mərhəməti yaradan, "Rəhman" adıyla sonsuz mərhəmət göstərən, bağışlayan, nemət verən Allah-Təala buyurur ki, "Rəhmətim qəzəbimi keçdi". Elə isə insan da Uca Yaradanın ona bəxş etdiyi mərhəmət hissini duyğudan davranışa çevirməkdə mükəlləfdir. Yəni qəlbindəki mərhəmət hissini bəsləmək, atdığı hər yaxşı addımla onu qüvvətləndirmək, itib getməsinə mane olmaq məcburiyyətindədir. Mərhəmət və ya şiddətin ortaya çıxdığı, formalaşdığı ilk yer ailə ocağıdır. İlk dəfə ana qucağında şəfqətin dadını duyan körpə illər ötdükcə, yaşa dolduqca ana-atasının davranışlarını izləyərək ya mərhəməti, ya da şiddəti mənimsəyər. Nə qədər çox mərhəmətli, anlayışlı, sevgi dolu davranışlar görsə, həm özünə, həm də digər ailə üzvlərinə dəyər verildiyinə şahid olsa, özü də mərhəmətli fərd kimi yetişər. Amma nə qədər çox şiddətə məruz qalsa, qəzəblə rastlaşsa, o qədər çox mərhəmətsiz olar. Bu baxımdan ailə daxilində ata-ananın həm bir-birinə, həm də övladlarına qarşı anlayış və sevgi ilə yanaşması, mərhəmətin əvvəlcə qəlblərdə, daha sonra isə cəmiyyətdə kök salmasına gətirib çıxarar.

Mərhəmətin əksi olan şiddət isə əsrimizin ən ciddi problemlərindən biridir. Şiddətin təməl səbəblərindən biri ünsiyyət qura bilməməkdir. Fərdlərarası ünsiyyət problemi ailədə, küçədə, cəmiyyətdə də özünü göstərir. Ailə insanların yalnız bir məkan daxilində birgə olması deyil. Ailə paylaşma və həmrəylik, xoşbəxtlik və kədərin, müvəffəqiyyət və çətinliyin də birlikdə yaşandığı məkanlardır. Hörmət, sevgi, mərhəmət, şəfqət, hirs, qəzəb kimi duyğuları idarə edə bilməyi öyrənmək fərdlərin bir-biri ilə münasibətlərini asanlaşdırır. Xüsusilə, fikirləri ifadə etmək, duyğuları açıqlaya bilmək qabiliyyətini inkişaf etdirmək lazımdır. Çünki danışaraq həll edilməyəcək heç bir problem yoxdur. Özlərini ifadə edə bilməyən fərdlər istəklərini, duyğularını ortaya qoymaq üçün başqa yollara, dolayısı ilə şiddətə müraciət edirlər. Halbuki ünsiyyət bacarığı inkişaf etmiş fərdlər bir-birini dinləməyə, istəklərini dilə gətirməyə, problemlərin öhdəsindən birgə gəlməyə çalışırlar.

Deyirlər, bir döyüşçü müdrik kişinin yanına gələrək ondan Cənnət və Cəhənnəm anlayışlarını izah etməsini istəyir. Ancaq müdrik ona həqarətlə cavab verir: "Sən qanmazsan. Sənə vaxt ayırmağa dəyməz". Özünü alçaldılmış hiss edən döyüşçü qılıncını qınından çıxarıb, qəzəblə deyir: "Səni bu təkəbbürünə görə öldürə bilərəm". Müdrik isə sakit tərzdə cavab verir: "Budur. Bu, Cəhənnəmdir". Döyüşçü qapıldığı hirsə eyham vuran ustadın sözlərindən diksinərək, özünü ələ alır və qılıncını qınına qoyur. Sonra təzim edərək verdiyi dərsə görə ona təşəkkürünü bildirir. Buna cavab olaraq müdrik deyir: "Bax, bu isə Cənnətdir".

Hazırladı: **Güney Namazova**

# QISA-QISA

*Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarı ilə dünyada yayılmış koronavirus (COVID-19) pandemiyasının qarşısının alınması məqsədilə martın 24-dən etibarən ölkə ərazisində xüsusi karantin rejimi elan edilmişdir. Bununla əlaqədar ölkə üzrə tətbiq olunan məhdudiyyət və tövsiyələrə əsasən, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində də (DQİDK) vətəndaşların qəbulu martın 17-dən etibarən dayandırılmış, ancaq DQİDK-nın "qaynar xətt"inə, "www.scwra.gov.az" rəsmi saytının "Jivochat" onlayn müraciət proqramına, rəsmi elektron poçt ünvanına və sosial şəbəkələrdəki rəsmi səhifələrinə daxil olan yüzlərlə müraciət cavablandırılmış, vətəndaşların qısa zamanda müvafiq məsələlərlə bağlı məlumat və cavab almaları operativ şəkildə təmin edilmişdir. Bununla yanaşı, Dövlət Komitəsi pandemiya dövründə də ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, o cümlədən hamı üçün çətin keçən bu günlərdə cəmiyyətimizin maddi və mənəvi cəhətdən səfərbər olunması, insanların mənəvi cəhətdən sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini davam etdirmişdir. Belə ki, Dövlət Komitəsinin bölgə şöbələri tərəfindən dini icma sədrləri və din xadimlərinin iştirakı ilə videokonfrans formatında maarifləndirmə tədbirləri keçirilmişdir. Bu qəbildən olan maarifləndirmə tədbirləri cari ay ərzində:*



**13 avqust** – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, Şamaxı və Qobustan Rayon İcra Hakimiyyətlərinin (RİH) və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) birgə təşkilatçılığı ilə "Karantin dövründə dini icmaların fəaliyyəti" mövzusunda; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Cəlilabad Regional Mərkəzi və Cəlilabad rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Düşmənə qarşı səmərəli informasiya müharibəsinin aparılmasında ictimaiyyətin rolu" mövzusunda;

**15 avqust** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı və Lənkəran, Astara, Lerik rayonlarında fəaliyyət göstərən dini icma sədrləri və din xadimlərinin iştirakı ilə;

**18 avqust** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi və İmişli RİH-in birgə təşkilatçılığı ilə Məhərrəmlik mərasimləri ilə bağlı;

**21 avqust** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı və Saatlı rayonunda fəaliyyət göstərən dini icma sədrləri, din xadimlərinin iştirakı ilə məhərrəmlik mərasimləri ilə bağlı;

**25 avqust** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "Pandemiya dövründə dini icmaların fəaliyyəti və qarşıda duran vəzifələr" mövzusunda;

**26 avqust** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Şirvan şəhəri, Salyan, Neftçala, Hacıqabul, Biləsuvar rayonlarında fəaliyyət göstərən məscidlərin dini icma sədrləri və din xadimlərinin iştirakı ilə baş tutmuşdur.

DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşlarının, rayonların dini icma sədrləri və din xadimlərinin qatıldığı videokonfraslarda çıxışlar zamanı koronavirus pandemiyasına (COVID-19) qarşı ölkəmizdə görülən qabaqlayıcı tədbirlər və həyata keçirilən işlərə diqqət çəkilmişdir. Dəfn mərasimləri istisna olmaqla, yas mərasimlərinin keçirilməsinin qadağan edildiyi diqqətə çatdırılmış, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında fəaliyyət göstərən Operativ Qərargahın qaydalarına, Qafqaz Müsəlmanları İdarəsinin tapşırıq və tövsiyələrinə əməl edilməsinin vacibliyi vurğulanmışdır. Məhərrəm ayının başlaması ilə əlaqədar dini icmalara və dindarlara karantin rejiminin tələblərinə əməl olunmasının vacibliyi, kütləvi şəkildə toplaşmamaları, dini ayinləri evlərində yerinə yetirmələri ilə bağlı müvafiq tapşırıq və tövsiyələr verilmişdir.

## MUSTAFA ƏL-KAZIMİ ASSUR XRİSTİANLARINA İRAQA QAYITMAQ BARƏDƏ ÇAĞIRIŞI EDİB



İraqın Baş naziri Mustafa əl-Kazımi iraqlı xristian mühacirləri "İslam Dövləti"nin məğlubiyyətindən sonra ölkələrinə qayıtmağa çağırıb. Bu barədə "Al-Masdar News" agentliyi xəbər verib.

Avqustun 20-də əl-Kazımi Bağdadda Kəldani Katolik Kilsəsinin patriarxı, kardinal Luis Rafael I Sakon və bir neçə yepiskopla görüşüb. Görüş zamanı Baş nazir bildirib ki, "İraq hər bir vətəndaşının dövlətidir və xristianlar onun qədim övladlarıdır. Bir ölkənin insanları arasında heç bir fərq yoxdur, çünki İraqın gələcəyinin qurulmasında hər kəs ortaqdır". Daha sonra o əlavə edib: "Biz ciddi şəkildə xristian ailələrimizə kömək etmək və onların problemlərinin həllinə çalışmaq niyyətindəyik. Biz sevinirik ki, xristianlar İraqa qayıdacaq və onun yenidən qurulmasına öz töhfələrini verəcəklər. Müxtəlif dinlərin mənsubları olan iraqlılar sülhə inanan və zorakılığı rədd edən yeni İraq dövlətinin qurulmasına çalışırlar".

Öz növbəsində, kardinal Sako əl-Kazıminin yanaşmasının gələcəkdə də xalqın istəklərinə cavab verməyə davam edəcəyinə və ölkənin qarşısında duran bir çox vəzifələrin həllinə imkan verəcəyinə ümid etdiyini söyləyib. Kəldani Katolik Kilsəsinin patriarxı bildirib ki, xristianlar özlərinin iraqlı kimliyi ilə fəxr edirlər və Əl-Kazımi hökuməti tərəfindən xristian ailələrin işlərinə ciddi şəkildə baxıldığına görə özlərini daha etibarlı hiss edirlər". O, əlavə edib ki, "çox sayda xristian İraqa qayıtmaq istəyir.

## SALMAN RÜŞDİ "TWİTTER"-DƏKİ İSLAMOFOB YAZILARIN SİLİNMƏSİNİ İSTƏYİR



Ellison Flud "TheGuardian"-da dərc olunmuş yazısında bildirib ki, yazıçı Salman Rüşdi onun adından verilən yalan sitatların "Twitter"dən silinməsini tələb edib. O, "Twitter"-də gedən və sonradan onun şəkli ilə birlikdə İslam saytlarında verilən islamofob sitatların ona aid olmadığını söyləyib və buna görə də silinməsi üçün müraciət edib.

Sitatda deyilir ki, "müsəlmanların yeganə məqsədi İslam adı altında millətləri terrorizm, bombardman, demoqrafik partlayış, iğtişaşlar və cihad yolu ilə məhv etməkdir". İlk dəfə deyil ki, bu sitata internetdə rast gəlinir. Uzun müddətdir ki, anti-İslam və qatı sağçı qruplar tərəfindən heç bir mənbəyə istinad göstərilmədən Rüşdiyə aid edilən bu sitata 2015-ci ildə "Twitter"-də rast gəlinmişdi. Həmin vaxt Rüşdi "insanların öz fanatizmlərinə haqq qazandırmaq üçün alətə çevirdiyi bu saxta sitatın" mənbəyini tapdığına görə istifadəçilərə təşəkkür etmişdi.

Bu dəfə isə yazıçı birbaşa "Twitter"-in baş direktoru Cek Dorsiyə yazaraq həmin tvitin saxta olduğunu, heç vaxt belə fikirlər səsləndirmədiyini bildirib və tvitin sosial şəbəkədən silinməsini xahiş edib.

Qeyd edək ki, iranlı Ayətullah Xomeyni 1988-ci ildə işıq üzü görən "Şeytan ayələri" romanına görə S.Rüşdü barəsində ölüm fətvası vermişdi.

## PAPA FRANSİSK BEYRUTA 250 MİN AVRO YARDIM GÖNDƏRİB



"catholicnewsagency"-nin məlumatına görə, Roma Papası I Fransisk avqustun 4-də Beyrut limanında baş vermiş dəhşətli partlayışdan sonra şəhərin yenidən qurulmasına dəstək məqsədilə Livan kilsəsinə 250 min avro dəyərində ianə göndərib.

"Bu ianə Zati-müqəddəslərinin zərər çəkmiş əhaliyə göstərdiyi diqqətin və onların dərdinə şərik olduğunun göstəricisi, həmçinin, fəlakətə məruz qalmış zavallılara ata qayğısının əlaməti olaraq görülür", - deyə Vatikanın press-relizində bildirilib.

Partlayış nəticəsində 160 nəfər ölüb, minlərlə insan yaralanıb. Partlayış limanın yaxınlığındakı bütün binaları dağıdıb və şəhərə xeyli ziyan vurub. Beyrut qubernatoru Mərvan Abbud 300 minə yaxın insanın evsiz olduğunu bildirib. Katolik Kilsəsi şəhərin və ölkənin tam dağılmaq ərəfəsində olduğunu söyləyib və kömək üçün beynəlxalq birliyə müraciət ediblər.

Vatikanın rəsmi açıqlamasında qeyd edilir ki, "Papanın ianəsi bu çətin müsibət və iztirablı günlərdə Livan Kilsəsinin ehtiyaclarını ödəmək məqsədilə Beyrutun apostol nunsiaturasının hesabına köçürücüləcək".

Qeyd edək ki, Papa I Fransisk partlayışın səhəri günü canlı yayında hər kəsi Livan xalqı üçün dua etməyə çağırıb: "Gəlin, faciə qurbanları və onların yaxınları üçün birlikdə dua edək. Dua edək ki, Livan bütün ictimai, siyasi və dini qüvvələrin fədakarlığı sayəsində bu ağır bəlanı dəf edə və beynəlxalq ictimaiyyətin köməyi ilə xalqının yaşadığı ciddi böhrandan çıxa bilsin".

## HİNDİSTANDA DÜNYANIN ƏN BÖYÜK RAMA MƏBƏDİNİN TİKİNTİSİNƏ BAŞLANILIB



Hindistanın Baş naziri Narendra Modi Ayodhya şəhərində Ram Canmabhumi (tanrı Ramanın doğulduğu yer) məbədinin təməlqoyma mərasimində iştirak edib. Yeni tikiləcək məbədin tanrı Ramanın dünyadakı ən böyük və ən hündür məbədi olacağı gözlənilir.

Baş nazir məbəd brahmanlarının müşayiəti ilə 40 kq təmiz gümüşdən hazırlanmış simvolik ilk bloku tikilinin özülünə atıb. "Bu məbəd bizim inancımızın, milli duyğularımızın simvolu olacaq. Həmçinin, o, 10 milyonlarla insanın kollektiv qərarının qüdrətini simvolizə edəcək, gələcək nəsilləri ilhamlandıracaq", - deyə Modi çıxışında bildirib.

Binanın təməlinə 600 metrdən çox dərinlikdə "zaman kapsulu" - gələcək nəsillər üçün bir mesaj yerləşdirilib. Bu kapsulda məbədin tarixinə dair sənədlər var. Sənədlərin əsas məqsədi hindu icmasının bu əraziyə olan hüquqlarını sübut etməkdir, çünki məbədin tikildiyi bir neçə əsr Babur məscidi yerləşmişdi. Məscid təxminən 30 il əvvəl dağıdılmışdı. Ümumiyyətlə, Ayodhyadakı məbəd kompleksi uzun müddət hindular və müsəlman icmaları arasında mübahisə mövzusu olmuşdur. Nəhayət, keçən ilin noyabr ayında Hindistan Ali Məhkəməsi Babur məscidinin yerləşdiyi mübahisəli torpaq sahəsinin məbədin inşası üçün Uttar Prades hökumətinə təhvil verilməsi barədə hökm çıxarıb. Bunun müqabilində isə müsəlman icmasına köhnə məsciddən 25 km məsafədə, "əlverişli bir yerdə" 2 hektardan çox torpaq sahəsi verilməlidir. Hindistan hakimiyyəti belə bir qərarla ehtirasları sakitləşdirdiklərinə inanır.

Qeyd edək ki, müasir Hinduizmdə Rama ilə Rəvanın mübarizəsi yaxşı ilə pis arasındakı simvolik mübarizə şəklində şərh olunur, bundan başqa, Rama Hinduizmin üç ali tanrısından biri olan (Şiva və Brahma ilə birlikdə) Vişnunun yer üzündəki təcəssümü kimi qiymətləndirilir.

## ƏKSƏR XRİSTİANLAR BİBLİYANI TƏKBAŞINA ANLAMAQDA ÇƏTİNLİK ÇƏKİRLƏR

ABŞ-da keçirilən yeni sosioloji sorğuya əsasən məlum olub ki, amerikalı xristianların çoxu Müqəddəs Kitabı kənar müdaxilə olmadan anlamaqda çətinlik çəkirlər. Bununla belə, əksər insanlar Müqəddəs Kitabı əxlaq norması kimi qəbul edirlər. Bu barədə "christiantoday" məlumat verib.

ABŞ-ın protestant kilsələrinə mənsub olanların yarıdan çoxu (57%) "Lifeway Research" mərkəzinin keçirdiyi sorğuda iştirak zamanı etiraf ediblər ki, müstəqil surətdə Bibliyanı oxumaq onlara çətin gəlir.

"Müqəddəs Kitabın bilavasitə oxunması və öyrənilməsi olduqca önəmlidir, ancaq oxuduqlarımızı başa düşmək üçün dindaşlarımızla dialoqa ehtiyacımız var", - deyə "İncilin Tədqiqatı" Cəmiyyətinin üzvü Dueyn Makkrari bildirib. "Müqəddəs mətnlərin birgə öyrənilməsi həm də başqasının yanaşmasını qəbul etməyə və anlamağa imkan verir və bununla da nöqteyi-nəzərimizdə irəliləyiş əldə edirik" - o vurğulayıb.

Demək olar ki, prixod mənsublarının hamısı (96%) İncilin ortaya çıxdığı tarixi həqiqətləri qavrayıb, yalnız bu əsasda onları şərh etmək və bugünkü həqiqətlərə tətbiq etməyin vacib olduğunu düşünürlər. Bununla yanaşı, sorğu iştirakçılarının əksəriyyəti (82%) Tanrı Kəlamının mahiyyətinin fərqli insanlar tərəfindən fərqli tərzdə və mənada təqdim oluna biləcəyinə inanırlar.

# ÜST: AVROPADA GƏNCLƏR ARASINDA KORONAVİRUSA YOLUXMA HALLARI ARTIB




Hazırda Avropa ölkələrində yeni növ koronavirusa (COVID-19) yoluxma halları gənclər arasında artıb.

"Guardian"-ın verdiyi xəbərə görə, bunu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə regional direktoru Hans Kluqe deyib.

"Qış fəslinin gəlişi ilə bu gənclər yaşlı əhali ilə daha yaxın təmasda olacaq və beləliklə xəstəxanaya müraciətlərin və ölümlərin sayı artacaq", - deyə ÜST rəsmisi bildirib.

Hans Kluqe gənclərə çağırış edib: "Heç kəs yenilməz deyil və bu pandemiya tornado kimidir".

Regional direktorun fikrincə, indiyə qədər olan təcrübə göstərir ki, kütləvi testlərin aparılması və koronavirusla bağlı izləmə sistemi pandemiya ilə mübarizədə effektiv təsir göstərir.

"Biz indi ölkələrin virusun yayılma sürətini və şiddətini təəccüblə qarşıladığı fevral ayındakı kimi deyilik. Bunun əvəzinə indi bizim üçün əsas olan sayıqlıqdır və vəziyyəti nəzarətdə saxlamaq üçün kifayət qədər məlumatlıyıq", - deyə Hans Kluqe bildirib.

# DİM İSLAMŞÜNASLIQ İXTİSASINA QƏBUL OLMAQ İSTƏYƏN ABİTURİYENTLƏRƏ MÜRACİƏT EDİB

Dövlət İmtahan Mərkəzi (DİM) İslamşünaslıq ixtisasına qəbul olmaq istəyən abituriyentlərə müraciət edib.

DİM-dən APA-ya verilən məlumata görə, bu ixtisasa qəbul olmaq üçün müsahibədə iştirak etmək istəyən abituriyentlər 31 avqust -2 sentyabr tarixlərində DİM-in saytında Dini Psixoloji Komissiya (DPK) üzrə qeydiyyatdan keçə biləcəklər.

İslamşünaslıq ixtisası üzrə DPK Bakıda fəaliyyət göstərəcək.

Müsahibədə abituriyentin dünyagörüşü və dini bilikləri, dini baxışlar və dünyəvilik anlayışı, psixoloji parametrlərinin İslamşünaslıq ixtisasına uyğunluğu, tolerantlıq və multikulturalizm təsəvvürləri yoxlanılır.

Müsahibədən uğurla keçən abituriyentlər ixtisas seçimi zamanı digər ixtisaslarla yanaşı, Azərbaycan İlahiyyat İnstitutunun İslamşünaslıq ixtisasını da seçə bilərlər.

DPK-nın tərkibinə ilahiyyat sahəsi üzrə mütəxəssislər, ekspertlər, psixoloqlar və DİM-in əməkdaşları daxil edilirlər.

Qeyd edək ki, müsahibədə III ixtisas qrupunu seçmiş və müsabiqə şərtlərinə əsasən ümumi balı 150, o cümlədən qəbul imtahanının II mərhələsi üzrə minimum 50 bal toplamış abituriyentlər iştirak edə bilərlər. Müsahibədən məqbul qiymət almış abituriyentlər ixtisas seçimi zamanı elektron ərizələrində islamşünaslıq ixtisasını qeyd edə biləcəklər.

III ixtisas qrupunun İslamşünaslıq ixtisası üzrə müsabiqə abituriyentin qəbul imtahanında (iki mərhələnin nəticəsində) topladığı ümumi bal əsasında aparılır.




# YENİ ZELANDİYADA MƏSCİDDƏ 51 NƏFƏRİ ÖLDÜRƏN, 40 NƏFƏRİ YARALAYAN ŞƏXSƏ HÖKM OXUNUB



15 mart 2019-cu il tarixdə Yeni Zelandiyanın Kraystçerç şəhərindəki iki məsciddə terror aktı törədən avstraliyalı Brenton Harrison Tarrant vaxtından əvvəl azadlığa çıxmaq hüququndan məhrum olunmaqla ömürlük həbs cəzasına məhkum edilib.

APA xəbər verir ki, bu barədə “The New Zealand Herald” nəşri məlumat yayıb.

“Sizin cinayətiniz o qədər bağışlanmazdır ki, ölənə qədər həbsdə qalsanız da, bu, tələb olunan cəzanı ödəyə bilməz. Siz mərhəmət etmədiniz, siz yalnızca qatil deyilsiniz, həm də terrorçusunuz. Siz Yeni Zelandiyanın həyat tərzinə hücum etməyi hədəflədiniz”, - məhkəmənin hakimi Kemeron Mander hökmü oxuyarkən deyib.

Hökm elan olunduqdan sonra Tarrant verilən cəzaya etiraz etmədiyini bildirib. Onun cəzasını Oklend həbsxanasında çəkəcəyi gözlənilir.

Yeni Zelandiyanın Baş naziri Casinda Ardern Tarranta verilmiş cəzanı alqışlayaraq, onun günahını “dəhşətli və utancverici hərəkət” adlandırıb. Həmçinin ehtimal olunur ki, ölkənin Nazirlər Kabineti məhkum edilmiş şəxsin öz vətəninə - Avstraliyaya deportasiya olunmasına və cəzasını orada davam etdirməsinə imkan verəcək qərar qəbul edə bilər.

Xatırladaq ki, məsciddə müsəlmanlara qarşı törədilmiş terror hücumu nəticəsində 51 nəfər ölmüş, 40 nəfər isə yaralanmışdı.

# HULUSİ AKAR: BİZ HAQQIN, HÜQUQUN VƏ QARDAŞLIĞIN TƏRƏFİNDƏYİK

Azərbaycan xalqı bizim doğma qardaşımızdır. Biz bir millət, iki dövlətik. Heç kimin buna şübhəsi olmasın. Əlbəttə, biz burada tərəf tuturuq. Biz haqqın, hüququn və qardaşlığın tərəfindəyik. Tovuzda həyata keçirilən təxribatı da şiddətlə qınayırıq. Ortada hər hansı bir səbəb olmadan edilən belə bir hücumu pisləyirik.

Bu fikirləri Türkiyənin Milli Müdafiə naziri Hulusi Akar Anadolu agentliyinin təşkil etdiyi canlı yayımda sualları cavablandırarkən deyib.

Azərbaycan ilə Türkiyə arasında hərbi sahədə münasibətlərinə toxunan nazir deyib: “Bizim müxtəlif təcrübə mübadilələri və tədris əməkdaşlığı istiqamətində aparılan işlərlə hər zaman azərbaycanlı qardaşlarımızın yanında olduğumuzu hər kəs bilməlidir. İstər tədris, istərsə də təlimlər sahəsində əməkdaşlığımız davam edir və bu istiqamətdə görüşlər keçirilir.

Ermənistanın Türkiyəyə qarşı sergilədiyi düşmənçilik mövqeyi ilə bağlı məlum proseslərə dair fikirlərini bölüşən nazir Hulusi Akar təəssüflə vurğulayıb ki, Ermənistan tərəfi ağılla, məntiqlə və düşünərək addımlar atmır. Ətrafdan dəstək görərək öz boyundan böyük işlər görmək istəyir. Təbii ki, onlar bunun həll yolu olmadığını görməlidirlər. Tarixə baxsaq, 1915 hadisələri ilə əlaqədar onlar tərəfindən irəli sürülən iddiaların səhv olduğunu mən deyil, ABŞ Milli Arxivinin ingilis və Amerika kəşfiyyat zabitləri tərəfindən hazırlanmış hesabatları deyir. Bu mövzuda mediadan və müxtəlif proqramlardan istifadə edərək təəssüf ki, Türkiyəyə və türklərə qarşı həqiqətdən uzaq fikirlər yayılır.

Ötən əsrin əvvəllərində baş verən hadisələrin sənədlərdə əksini tapdığını diqqətə çatdıran dövlət rəsmisi bildirib ki, həmin prosesləri özləri izləyən ingilis və amerikalıların hesabatları var. Onlar hər yeri gəzərək türk kəndlərinin yandırılıb, erməni kəndlərinə isə heç bir zərərin dəymədiyini görüb və bunları açıq şəkildə yazıblar. Orada hətta məscidlərin yandırılıb dağıdıldığı, kilsələrin isə ziyan çəkmədiyi də göstərilir. Bütün bu faktlar ABŞ arxivlərindədir. Əlbəttə, biz elm adamlarına bu sənədlərə baxmağı tövsiyə edirik. Orada bütün məsələlərə dair ilkin fikirlər mövcuddur.

# NURSULTAN NAZARBAYEV NÜVƏ SİLAHLARININ AZALDILMASI SAMMİTİNİN QAZAXISTANDA KEÇİRİLMƏSİNİ TƏKLİF EDİB

Qazaxıstanın sabiq Prezidenti Nursultan Nazarbayev Nüvə silahlarının azaldılması Sammitinin Qazaxıstanda keçirilməsini təklif edib.

Nursultan Nazarbayev ABŞ, Rusiya, Çin və Avropa İttifaqı arasında nüvə silahlarının mərhələli olaraq ixtisarına dair razılaşmanın hazırlanması üzrə danışıqların aparılması təşəbbüsünü irəli sürüb.

Nazarbayev bildirib ki, dünyanın nəhəng dövlətlərinin liderləri planetin gələcəyi üçün xüsusi məsuliyyət daşıyırlar.

Xatırladaq ki, N.Nazarbayev BMT-də “Nüvə sınaqlarından azad dünya uğrunda çempion” statusuna layiq görülüb.

Məlumat üçün bildirək ki, Nursultan Nazarbayevin təşəbbüsü ilə 1991-ci il avqustun 29-da Qazaxıstanda yerləşən Semipalatinsk nüvə sınaq poliqonu bağlanıb.

# BİLİRSİNİZMİ?

**5 sentyabr – Beynəlxalq Xeyriyyəçilik Günüdür.** Bu əlamətdar günün təsis edilməsinin təşəbbüskarı Macarıstan olmuşdur. BMT Baş Assambleyası tərəfindən təsis edilən və ilk dəfə 2013-cü ildə qeyd olunan Xeyriyyəçilik Gününün məqsədi beynəlxalq ictimaiyyətin diqqətini xeyriyyə təşkilatlarının, o cümlədən ayrı-ayrı şəxslərin yoxsulluq və ağır humanitar böhranların aradan qaldırılması istiqamətində gördüyü işlərə çəkmək, ictimai təşkilatları, maraqlı tərəfləri könüllü və xeyriyyə işlərində iştiraka həvəsləndirməkdir.

**7 sentyabr – Hərbi Oyuncaqları Ümumdünya Yox Etmə Günüdür.** Bu tarix 1988-ci ildə Yetim və valideyn himayəsindən məhrum uşaqlara Beynəlxalq Yardım Assosiasiyasının təşəbbüsü ilə qeyd olunmağa başlamışdır. Assosiasiya ilk dəfə 1987-ci ildə uşaqları hərbi oyuncaqlardan imtinaya, onları başqa oyuncaqlara (yumşaq oyuncaqlar, inşaat dəstləri, stolüstü oyunlar, maşınlar, kuklalar və s.) dəyişdirməyə dəvət etmək fikrini irəli sürdü. Növbəti il bu təşəbbüs müxtəlif ölkələr tərəfindən eşidildi və o vaxtdan bəri hər il hərbi oyuncaqların yox edilməsində iştirak edən bir sıra tərəfdar qazandı. Bununla yanaşı, hərbi oyuncaqların uşaq psixologiyasına hər hansı zərər verib-verməməsi məsələsi bir çox müzakirələrə səbəb oldu. Belə bir təşəbbüsün lehinə olanlarla yanaşı, əleyhinə çıxış edənlərə də rast gəlmək mümkündür.

**8 sentyabr – Beynəlxalq Savadlılıq Günüdür.** UNESKO tərəfindən 1965-ci ildə elan edilən bu əlamətdar günün qeyd olunmasında məqsəd savadlılığın insanlar, icmalar və ümumilikdə, cəmiyyət üçün faydalılığına diqqəti cəlb etməkdir.

**8 sentyabr – Məryəm Ananın Mövludu Günüdür.** Bakirə Məryəmin mövludunun yad edilməsi xristianların ən əsas bayramlarından biridir. Bununla onlar bəşəriyyətin qurtuluşu üçün ilahi planın həyata keçirilməsində Məryəmin rolunun nə qədər vacib olduğunu vurğulayırlar. Katoliklər bu bayramı sentyabrın 8-i, pravoslavlar isə sentyabrın 21-i keçirirlər. Katoliklərdə bu günün qeyd edilməsinə dair ilk fakt V əsrin ikinci yarısına aiddir. Təxminən elə həmin vaxt bayram kilsə təqviminə daxil edilmişdir. Pravoslavlarda isə IV əsrdən qeyd olunur.

**8 sentyabr – Bəhailikdə İzzət Ayının On Doqquzuncu Günü Bayramıdır.** Miladi təqvim üzrə sentyabrın 8-də ərəb dilindən tərcümədə "qüdrət, əzəmət" mənasını verən İzzət ayı girir. On doqquz aylıq bəhai təqviminə görə, həmin gün bəhailər vacib bir bayramı – İzzət ayının on doqquzuncu gününü qeyd edirlər. Bəhai icmasında On doqquzuncu Günün qeyd edilməsi yalnız duaların və müqəddəs mətnlərin oxunduğu mənəvi proqramdan ibarət deyil, həm də möminlərin vacib məsələləri müzakirə etdiyi və dostluq əlaqələrini qurduğu ünsiyyət mühitidir. Bayram tədbirlərində uşaqlar da daxil olmaqla bütün bəhailər iştirak edirlər.

**10 sentyabr – Ümumdünya İntiharların Qarşısının Alınması Günüdür.** İntiharların Qarşısının Alınması üzrə Beynəlxalq Assosiasiyanın dəstəyi ilə Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən təsis olunmuş bu günün məqsədi intiharların qarşısının alınması məsələsində öhdəliyi gücləndirmək və bütün dünyada təşviq etməkdir. Təşkilatın məlumatına əsasən, bu gün intihar nəticəsində ölənlərin sayı ildə 1 milyona yaxınlaşır. Özünəqəsd 15-29 yaş arası gənclərdə ikinci əsas ölüm səbəbi olaraq göstərilir. Dünya üzrə 78 faiz intihar hallarına aşağı və orta gəlirli ölkələrdə rast gəlinir.

**10 sentyabr** – 1984-cü ildə britaniyalı genetik Alek Ceffriz hər bir insanın DNT-sinin barmaq izləri kimi bənzərsiz və unikal olduğunu aşkar etdi. Ceffriz onları "genetik izlər" adlandırdı. Bununla da "genetik daktiloskopiya" anlayışı yarandı. Bu kəşfin ilk praktiki tətbiq sahəsi kriminalistika olmuşdur. "Genetik izlər"dən itkin düşmüş şəxslərin axtarışında, insan şəxsiyyətinin müəyyənləşdirilməsində, cinayətlərin və inzibati xətaların qarşısının alınması, aşkar edilməsi və araşdırılmasında, qohumluq əlaqələrinin qiymətləndirilməsində istifadə olunur.

**12 sentyabr – Ümumdünya İlk Tibbi Yardım Günüdür.** Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatına üzv ölkələrinin təşəbbüsü ilə təsis edilən bu əlamətdar gün 2000-ci ildən etibarən hər il sentyabrın ikinci şənbəsi qeyd olunur. Həmin günün yaranma tarixi 1881-ci ildə Vyana şəhərində teatr binasında baş verən güclü yanğınla əlaqədardır. Yanğın zamanı həlak olanların sayı çox olduğuna görə tibbi yardım göstərilməsində problemlər yaranır. Buna görə də ilk dəfə Vyanada müstəqil təcili tibbi yardım xidmətinin yaradılması qərara alınır. İlkin tibbi yardımın məqsədi zərərçəkənin həyatını xilas etməklə yanaşı, sadə tibbi tədbirlər görməklə onun ağrılarını azaltmaq və mümkün ağırlaşmaların qarşısını almaqdır.

**13 sentyabr – Faşizm Qurbanlarını Anım Günüdür.** 1962-ci ildə sentyabrın hər ikinci bazar gününün Faşizm Qurbanlarını Beynəlxalq Anım Günü kimi qeyd edilməsi barədə qərar qəbul edilmişdir. Əsas məqsəd faşizm ideologiyasının dirçəlişi ilə mübarizə aparmaqdır.

**15 sentyabr – Azərbaycanda Bilik Günüdür.** Bu gün 2004-cü ilə qədər sentyabrın 1-nə təsadüf edirdi. Lakin Prezident İlham Əliyevin 21 avqust 2004-cü il tarixli Fərmanına əsasən Azərbaycanın bütün təhsil müəssisələrində dərslərin 15 sentyabrdan başlanması qərara alınmış və beləliklə, həmin gün Bilik Günü kimi qeyd olunmağa başlanılmışdır.

**15 sentyabr – Beynəlxalq Demokratiya Günüdür.** BMT Baş Assambleyası tərəfindən 2007-ci ildə təsis edilmiş bu gün yeni və bərpa edilmiş demokratiyaların I Beynəlxalq konfransının 2008-ci ildə qeyd edilən 20-ci ildönümünə həsr olunmuşdur. BMT dövlətlərə, habelə regional, hökumətlərarası təşkilatlara və qeyri-hökumət qurumlarına bu günü dünyada demokratiyanın vəziyyətinə diqqət yetirmək imkanı kimi qəbul etməyi təklif etmişdir.

**18 sentyabr – Hicri təqviminin ikinci - Səfər ayı başlayır.** Səfər adının "boş" mənasına gəldiyinə dair fikirlər var. Fərziyyəyə görə, bu ay ona görə səfər adlandırılıb ki, cahiliyyə dövründə insanlar Məhərrəm ayında haram olduğu üçün müharibə etməzdilər. Səfər ayı girəndə isə müharibəyə yollandıqları üçün evləri boş qalardı. Ona görə də bu aya "boş ay" deyərmişlər. Bu ay İslam tarixində çox sayda hadisələrlə yadda qalmışdır. Məsələn, səfər ayının 1-i İmam Hüseynin Əhli-beytinin əsir kimi Şama daxil olması; Süffeyn döyüşünün başlanması; 3-ü İmam Məhəmməd Baqirin doğum günü; 5-i Həzrət Rüqəyyənin şəhadəti; 7-si İmam Musa Kazımın doğum günü; 20-si İmam Hüseynin "ərbəin" günü; 28-i Məhəmməd peyğəmbərin (s) vəfat günü; 29-u İmam Rzanın şəhadəti və s. El arasında Səfər ayına "ağır ay" da deyilir. Lakin bunun dini əsası yoxdur, əksinə, həmin günlərdə sədəqə vermək, insanlara əl tutmaq bəyənilir.

**19 sentyabr – Yəhudilər Roş ha Şana bayramını qeyd edirlər.** Dünyanın yaradılması şərəfinə qeyd olunan bu bayram ötən ilin sona yetməsini və yeni ilin başlanğıcını simvolizə edir. Roş ha Şana insanları günah əməllərdən çəkinməyə, Tanrıya ibarət etməklə mənəvi sağlığa qovuşmağa çağıran mərasimdir. Bu mərasim yeni ilin ilk 10 günü ərzində keçirilir. Bu günlər ərzində Allah insanlara imkan verir ki, onlar etdikləri hərəkətləri düşünsün, pis əməllərdən həmişəlik əl çəksinlər. Yəhudilər bayramın ilk günü sinaqoqa gedir, mənəvi saflıq qazanmaq üçün və yeni ilin uğurlu olması arzusu ilə səhər və axşam saatlarında bayram ibadəti edirlər. Dini ayinlər qoç buynuzundan hazırlanan şeypurun səsləndirilməsi ilə yekunlaşır. Günahlara həmişəlik tövbə etmək mənasını ifadə edən sonuncu ayin Yom-Kippur adlanır. Bayramın 10-cu günü keçirilən bu ayin bir sutka ac qalmaqla icra olunur. Daha sonra bayram şənlikləri başlayır. Kişilərin adına qurban kəsilir, şirniyyat süfrələri açılır. El adətinə görə, almanı bala batırıb yeyirlər ki, il şirin təəssüratlarla keçsin.

**21 sentyabr - Beynəlxalq Sülh Günüdür.** İlk dəfə 1981-ci ildə BMT tərəfindən təsis edilib. 2001-ci ildə Birləşmiş Krallıq tərəfindən təklif olunan qətnamə ilə 2002-ci ildə BMT Sülh günü üçün 21 sentyabr tarixini dəqiq tarix kimi müəyyənləşdirib və bu tarixi ümumdünya atəşkəs günü elan edib. Beynəlxalq Sülh günü BMT-nin Nyu-Yorkdakı Baş Qərargahında yerləşən "Sülh Zəngi"nin çalınması ilə başlayır. Yaponiya Parlamentinin hədiyyəsi olan bu zəngin üzərində "Yaşasın Mütləq Dünya Sülhü" sözləri yazılıb.

**22 sentyabr – Avtomobilsiz Dünya Günüdür.** Həmin təqvim sürücüləri bir gün ərzində avtomobildən imtina etməyə, ictimai nəqliyyatdan istifadəyə, velosiped sürməyə və ya sadəcə gəzməyə təşviq edən qlobal bayramdır. İlk dəfə 1995-ci ildə Böyük Britaniya, İslandiya və Fransada təşkil olunub. Elə həmin il kampaniyanı dəstəkləmək üçün Ümumdünya Avtomobildən Azadolma Günü konsorsiumu yaradılıb. Avropa Komissiyası 2000-ci ildə təşəbbüsü dəstəkləyib və nəticədə sentyabrın 22-də ilk dəfə Avropa miqyasında Dünya Avtomobildən Azadolma Günü keçirilib.

**23 sentyabr – Beynəlxalq Jest Dilləri Günüdür.** BMT Baş Assambleyasının qərarı ilə ilk dəfə 2018-ci ildə qeyd olunub. Bu əlamətdar gün jest dillərindən istifadə edən bütün insanların dil özünəməxsusluğunun və mədəni müxtəlifliyinin qorunması və dəstəklənməsi üçün imkan yaradır.

**24 sentyabr – Məhəmməd peyğəmbərin hicrəti baş tutmuşdur.** Sonradan bu hadisə müsəlmanların hicri təqviminin başlanğıcı olmuşdur. Lüğət mənası bir yeri tərk edib başqa yerə köçmək olan hicrət termin olaraq qeyri-müsəlman ölkədən İslam ölkəsinə köçməyi ifadə edir. "Hicrət" deyiləndə İslam mədəniyyətində daha xüsusi mənasıyla Peyğəmbərin və səhabələrinin Məkkədən Mədinəyə köçmələri – hicrəti nəzərdə tutulur. Hicrət 29 səfər (9 sentyabr 622) cümə axşamı gecəsi başlamış və 12 rəbiüləvvəl (24 sentyabr 622) cümə günü tamamlanmışdır.

**27 sentyabr – 1540-ci ildə Yezuitlər ordeninin əsası qoyulmuşdur.** Romakatolik Kilsəsinin kişi ruhani ordeni olan yezuitlər ordeni (İsa cəmiyyəti) 1534-cü ildə Parisdə İqnati de Loyola tərəfindən təsis edilib və 1540-cı ildə Papa III Pavel tərəfindən təsdiqlənib. Papalıq institutunun maraqlarının qorunması, bidətlərə qarşı mübarizə və missionerlik məqsədilə yaradılıb.

**27 sentyabr – Beynəlxalq Lal-Karlar Günüdür.** Hər il sentyabrın son bazar günü qeyd olunan bu gün 1951-ci ildə Lal-Karların Dünya Federasiyasının yaradılması şərəfinə təsis edilib. Bu günün hədəfi karların üzləşdikləri gündəlik problemlərlə bağlı cəmiyyətin məlumatlandırılmasıdır.

**28 sentyabr – Konfutsinin doğum günüdür.** Bu gün həm də Çində Milli Müəllim Günü kimi qeyd olunur. Bu bayram bilik əldə etmək hüququna yalnız aristokratiyanın deyil, hər kəsin sahib olduğunu simvolizə edir. Konfutsi Çin mütəfəkkiri və filosofu Kon Fu Dzının latınlaşdırılmış adıdır. O, e.ə. 551-479-cu illərdə yaşamışdır. Konfutsiçilik Çin sivilizasiyasının mənəvi-mədəni imicini formalaşdıran iki əsas ənənəvi təlimdən biridir (digəri Daosizmdir). Uzun əsrlər boyu bu təlim Çin dövlətinin ideoloji əsaslarını təşkil etmişdir. Konfutsinin fəlsəfəsi beş fəzilətə əsaslanan özünütərbiyəni nəzərdə tutur: xeyirxahlıq, ədalət, doğruluq, müdriklik və loyallıq.

Hazırladı: **Güney Namazova**

CƏMİYYƏT və DİN

№ 05 (346) AVQUST 2020-ci il

# FATEH SULTAN MEHMETİN 540 İL TARİXİ OLAN PORTRETİ İSTANBULA GƏTİRİLİB



Fateh Sultan Mehmetin Londonda keçirilən hərracda satın alınan portreti İstanbula gətirilib.

Sultanın günümüzədək gələn üç orijinal portretindən biri olan bu rəsm əsəri bu il iyunun 23-də çıxarıldığı hərracda İstanbul Böyükşəhər Bələdiyyəsi (İBB) tərəfindən 770 min sterlinqə alınıb.

Gömrük işləri davam edən rəsm əsərinin qısa müddət ərzində İBB-nin Saraçhanedəki binasına gətirilməsi gözlənilir.

COVID-19 pandemiyası ilə əlaqədar portretin bir müddət saxlanıldıqdan sonra, bu il sentyabr-oktyabr aylarında sərgilənməsi planlaşdırılır.

Qeyd edək ki, portretin XV əsrdə italiyalı rəssam Gentile Bellini tərəfindən çəkildiyi ehtimal olunur. Belə ki, “Sultan II Mehmet, mövqe sahibi gənc ilə birlikdə” adlı rəsm əsərinin tarixi 1479-cu ilə təsadüf edir. O zamanlar venesiyalılarla imzalanan “İstanbul sazişi”nin maddələrindən biri də dövrün ən yaxşı rəssamlarından birinin Fatehin rəsmlərini hazırlamaq üçün İstanbula gəlməsi idi. Bu vəzifə Gentile Belliniyə tapşırılır. O, Osmanlı paytaxtına gələrək 1479-1481-ci illər arasında sarayda qalaraq Fateh Sultan Mehmetin portretlərini hazırlayır.

Rəsm əsərindəki ikinci şəxsin kimliyi tam bəlli olmasa da, onun üç şahzadədən biri olduğu düşünülür.

# "MİCROSOFT" KORPORASİYASI "INTERNET EXPLORER 11" BRAUZERİNİN DƏSTƏYİNİ DAYANDIRIR

“Microsoft” korporasiyası “Internet Explorer 11” brauzerinin dəstəyinin dayandırılması haqqında bəyanat dərc edib.

Bəyanatda deyilir ki, 30 noyabr 2020-ci il tarixində populyar “Microsoft Teams” xidməti “Internet Explorer 11” brauzerini dəstəkləməyi dayandıracaq. O cümlədən “Microsoft 365” paketi 2021-ci il avqustun 17-dən etibarən “IE 11” brauzerini dəstəkləməyəcək.

“Microsoft”un nümayəndələrinin sözlərinə görə, onlayn dəstəyin dayandırılması onu bildirir ki, istifadəçilər bəzi funksiyaların işləməməsi və ya xidmətlərin qeyri-sabit işləməsi kimi hallarla üzləşə bilərlər.

Qeyd edək ki, brauzerin 11-ci versiyası 2013-cü ilin oktyabrında “Windows 8.1” əməliyyat sisteminin çıxarılması ilə birgə təqdim edilib. “Microsoft”un nümayəndələri onlayn dəstəyin dayandırılmasını veb-standartların mühüm dəyişikliyi və daha müasir “Microsoft Edge”yə keçidlə izah ediblər.



## Yadigar söz

*M.Ə.Sabir*

***Dinsizlik ilə kəsb olunan bir mədəniyyət...
Vəhşiyyətin ən qorxulu səhrası deyilmi?!***

## Bakı və Abşeron üzrə namaz vaxtları ( Sentyabr - 2020)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 04:43 | 06:07 | 12:40 | 17:19 | 19:28 | 20:32 |
| 2 | 04:44 | 06:08 | 12:40 | 17:18 | 19:26 | 20:30 |
| 3 | 04:45 | 06:09 | 12:40 | 17:17 | 19:24 | 20:28 |
| 4 | 04:46 | 06:10 | 12:40 | 17:15 | 19:23 | 20:26 |
| 5 | 04:48 | 06:11 | 12:39 | 17:14 | 19:21 | 20:24 |
| 6 | 04:49 | 06:12 | 12:39 | 17:13 | 19:20 | 20:23 |
| 7 | 04:50 | 06:13 | 12:38 | 17:11 | 19:18 | 20:21 |
| 8 | 04:51 | 06:14 | 12:38 | 17:10 | 19:16 | 20:19 |
| 9 | 04:52 | 06:15 | 12:38 | 17:09 | 19:15 | 20:17 |
| 10 | 04:53 | 06:16 | 12:37 | 17:08 | 19:13 | 20:15 |
| 11 | 04:55 | 06:17 | 12:37 | 17:06 | 19:11 | 20:14 |
| 12 | 04:56 | 06:18 | 12:37 | 17:05 | 19:10 | 20:12 |
| 13 | 04:57 | 06:19 | 12:36 | 17:04 | 19:08 | 20:10 |
| 14 | 04:58 | 06:20 | 12:36 | 17:02 | 19:06 | 20:08 |
| 15 | 04:59 | 06:21 | 12:36 | 17:01 | 19:04 | 20:06 |
| 16 | 05:00 | 06:22 | 12:35 | 16:59 | 19:03 | 20:04 |
| 17 | 05:01 | 06:23 | 12:35 | 16:58 | 19:01 | 20:03 |
| 18 | 05:02 | 06:24 | 12:35 | 16:57 | 18:59 | 20:01 |
| 19 | 05:03 | 06:25 | 12:34 | 16:55 | 18:58 | 19:59 |
| 19 | 05:05 | 06:26 | 12:34 | 16:54 | 18:56 | 19:57 |
| 21 | 05:06 | 06:26 | 12:34 | 16:52 | 18:54 | 19:56 |
| 22 | 05:07 | 06:27 | 12:33 | 16:51 | 18:53 | 19:54 |
| 23 | 05:08 | 06:28 | 12:33 | 16:50 | 18:51 | 19:52 |
| 24 | 05:09 | 06:29 | 12:32 | 16:48 | 18:49 | 19:50 |
| 25 | 05:10 | 06:30 | 12:32 | 16:47 | 18:48 | 19:48 |
| 26 | 05:11 | 06:31 | 12:32 | 16:45 | 18:46 | 19:47 |
| 27 | 05:12 | 06:32 | 12:31 | 16:44 | 18:44 | 19:45 |
| 28 | 05:13 | 06:33 | 12:31 | 16:43 | 18:43 | 19:43 |
| 29 | 05:14 | 06:34 | 12:31 | 16:41 | 18:41 | 19:42 |
| 30 | 05:15 | 06:35 | 12:30 | 16:40 | 18:39 | 19:40 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## Qeyri-kommersiya dini qurumlarının dövlət reyestrində (Dini qurumların dövlət reyestri) edilmiş dəyişiklik

**“Zaqatala İslam Kolleci”**

Qeydiyyat tarixi: 06 mart 2017-ci il
Qeydiyyat №-si: 100117D-729

Qafqaz Müsəlmanları İdarəsinin əmrləri və ərizəsinə əsasən Bilalov Malik Abdurahman oğlu dini qurumun qanuni təmsilçisi (direktoru) kimi Qeyri-kommersiya qurumlarının dövlət reyestrindən (Dini qurumların dövlət reyestri) çıxarılmışdır.

Qurbanov Anar Rafiq oğlu dini qurumun qanuni təmsilçisi (direktoru) kimi Qeyri-kommersiya qurumlarının dövlət reyestrinə (Dini qurumların dövlət reyestri) daxil edilmişdir.

**Dəyişikliklərin qeydiyyat tarixi:** 09 iyul 2020-ci il

# YAXIN GƏLƏCƏK ÜÇÜN ƏSAS İNFORMASİYA TEXNOLOGİYALARI TRENDLƏRİ MÜƏYYƏNLƏŞDİRİLİB

“Gartner” analitik şirkəti yaxın illər üçün informasiya texnologiyaları bazarındakı əsas trendlər barəsində öz araşdırmasını təqdim edib. 2020-ci ildə mütəxəssislər COVID-19 pandemiyası ilə əlaqədar yeni tendensiyaları siyahıya daxil ediblər.

Belə trendlərdən biri sağlamlıq pasportu adlanır. Bu, yoluxma riskini göstərən mobil proqramdır. Belə proqramlar koronavirusa yoluxma ehtimalı yüksək olan insanların supermarketlərə, restoranlara və başqa ictimai yerlərə girişini bloklamağa imkan verir.

“Gartner”-in hesabatında göstərilmiş növbəti trend məlumatların məxfiliyini və təhlükəsizliyini, aktivlərin mənbəyini, insanların və əşyaların eyniliyini müəyyənləşdirir. Məlumatların sızması və saxta xəbərlərin artması fonunda bu cür texnologiyalar daha çox aktuallaşır.

“Gartner”-in mütəxəssislərinin sözlərinə görə, zamanla texnologiyalar insanların həyatına daha dərin nüfuz edir və insanın eyniləşdirmə, giriş əldə etmək və ödəniş üçün istifadə edilə bilən rəqəmli versiyalarının yaradılmasına gətirib çıxarır.

Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, “Universal Poliqraf” nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894